

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Azərbaycanla Vyetnam bir-birinin maraqlarına hörmət edən dost ölkələrdir



4


SƏS

№ 215 (6898)

24 noyabr 2023-cü il.
Qiyməti 60 qəpik


## "Ölkələrimiz arasında dostluq münasibətləri hərtərəfli inkişaf edir"



3

*Prezident İlham Əliyev Macarıstanın Baş naziri ilə görüşüb*

# Ən doğru olan VASİTƏÇİSİZ SÜLH DANIŞIQLARI





8

## Yolumuz Laçınadır



9

## Azərbaycanın gizli sərvəti: buradan böyük gəlirlər əldə etmək olar



13

## USAİD-in korrupsiya faktı




14

## İnformasiya aclığı: necə doymalı?



15

## Bioyanacaq və torpaq uğrunda yarış



6

# Azərbaycan iqtisadi tərəfdaşlıq üçün mühüm platformadır

## *Prezident İlham Əliyev BMT-nin Avropa üzrə İqtisadi Komissiyasının icraçı katibini qəbul edib*

***Azərbaycan Prezidenti İlham Əliyev noyabrın 23-də BMT-nin Avropa üzrə İqtisadi Komissiyasının (UNECE) icraçı katibi Tatyana Molçanı qəbul edib. Azərbaycanın 1993-cü ildə BMT-nin Avropa üzrə İqtisadi Komissiyasına üzv qəbul olunmasından etibarən ölkəmiz ilə bu təsisat arasında sıx əlaqələrin qurulduğunu deyən dövlətimizin başçısı qeyd etdi ki, Azərbaycan bu Komissiya ilə ətraf mühitin mühafizəsi, nəqliyyat, gömrük, enerji, Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsi və digər sahələrdə uğurlu əməkdaşlıq edir.***



Prezident İlham Əliyev BMT-nin Avropa üzrə İqtisadi Komissiyasının nümayəndə heyətlərinin ölkəmizdə Azərbaycanın sədrliyi ilə təşkil olunan beynəlxalq tədbirlərdə iştiraklarını məmnunluqla qeyd etdi. Dövlətimizin başçısı bu xüsusda Bakıda keçirilən BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramı (SPECA) Zirvə görüşündə BMT-nin Avropa üzrə İqtisadi Komissiyasının və BMT-nin Asiya və Sakit okean üzrə İqtisadi və Sosial Komissiyasının icraçı katiblərinin iştirakını SPECA çərçivəsində əməkdaşlığa verilən əhəmiyyətin nümunəsi kimi qiymətləndirdi. Azərbaycan Prezidenti SPECA yarananda üzv ölkələrin müstəqilliklərinin ilk mərhələsində, fərqli geosiyasi və coğrafi mühitdə olduqlarını xatırladı, ötən müddət ərzində üzv ölkələrin müstəqil dövlətlər olaraq uğurlu inkişaf yolu keçdiklərini vurğuladı.

SPECA Zirvə görüşünün Bakıda keçirilməsinin Azərbaycan ilə Mərkəzi Asiya ölkələri arasında əməkdaşlığın hərtərəfli və dinamik surətdə inkişafının bariz nümunəsi olduğunu deyən Prezident İlham Əliyev son illər ərzində Azərbaycan ilə region ölkələri arasında siyasi, iqtisadi, nəqliyyat və digər sahələrdə əməkdaşlığın genişlənməsini məmnunluqla qeyd etdi. Dövlətimizin başçısı vurğuladı ki, SPECA-nın üzvü olan dövlətlər sıx əməkdaşlıq nəticəsində uğurlu regional model təqdim edirlər. Bu, həmçinin Azərbaycanın və Mərkəzi Asiya ölkələrinin vahid siyasi, iqtisadi və geosiyasi bir məkanı ifadə etmələrinin bariz təzahürü, Azərbaycanın Mərkəzi Asiya ölkələri ilə əməkdaşlığı daha da genişləndirmək əzminin və niyyətinin nümunəsidir.

Dəvətə görə təşəkkürünü bildirən Tatyana Molçan Azərbaycanın SPECA-ya uğurlu sədrliyini vurğuladı və ilk dəfə bu formatda Zirvə görüşünün keçirilməsinin mühüm nailiyyət olduğunu dedi.

Azərbaycanın sədrliyi ilə bu çərçivədə əməkdaşlığın daha böyük perspektivlərinin olduğunu qeyd edən qonaq Sammitin SPECA-nın yaranmasının 25-ci ildönümünə təsadüf etməsini və bu xüsusda, BMT Baş Assambleyasında SPECA-nın təsis edilməsinə dair qətnamənin qəbul olunmasının əhəmiyyətini vurğuladı.

Tatyana Molçan SPECA-nın Sammitində BMT Baş katibini təmsil etməsindən məmnunluq duyduğunu bildirdi. O, bu Sammitin SPECA-ya üzv ölkələr arasında qarşılıqlı maraq doğuran sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi, prioritetlərin və eyni zamanda, çağırışların müzakirəsi baxımından böyük əhəmiyyət daşıdığını bildirərək BMT-nin Avropa üzrə İqtisadi Komissiyasının Sammit çərçivəsində aparılacaq müzakirələrdə həmsədr qismində iştirakının məmnunluq doğurduğunu dedi.

Görüşdə nəqliyyat dəhlizləri, urbanmeşə konsepsiyası və şəhərlərdə yaşıllaşdırmanın artırılması, Azərbaycanın tarazlaşdırılmış və uğurlu şəkildə bərpaolunan və yaşıl enerji konsepsiyasına keçidi, bu istiqamətdə ölkəmizin irəli sürdüyü təşəbbüslər ilə bağlı fikir mübadiləsi aparıldı.

Mərkəzi Asiya ölkələri ilə nəqliyyat imkanlarının artırılması, Orta Dəhlizin əhəmiyyəti, Azərbaycanın ölkəmizdə və qonşu ölkələrdə nəqliyyat infrastrukturunun inkişafına yatırdığı investisiyalar məmnunluqla qeyd edildi. Bu baxımdan BMT-nin Avropa üzrə İqtisadi Komissiyası ilə əməkdaşlığın genişləndirilməsi məsələləri müzakirə olundu.

Söhbət zamanı "Transsərhəd kontekstində ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında Konvensiya" - Espo Konvensiyasının əhəmiyyətinə toxunuldu, bu Konvensiyanın regionda təşviqinin, bölgədə su hövzələrinin və çayların ekoloji təmizliyinin təmin olunmasının, sərhədyanı zonalarda, xüsusilə də mədən sənayesi ilə əlaqədar işlərin aparılmasında qonşu dövlətlərin narahatlıqlarının nəzərə alınmasının vacibliyi qeyd edildi.

## İtaliya saytı Prezident İlham Əliyevin Fransanın destruktiv fəaliyyətinə dair fikirlərini geniş işıqlandırıb




İtaliyanın "Formiche" saytı Azərbaycan Prezidenti İlham Əliyevin Fransanı Cənubi Qafqazda destruktiv fəaliyyətdən əl çəkməyə çağıran fikirlərinə geniş yer ayırıb. Yazıda Prezident İlham Əliyevin "Dekolonizasiya: Qadınların gücləndirilməsi və inkişaf" mövzusunda beynəlxalq konfransın iştirakçılarına ünvanladığı müraciətdən sitatlar gətirilib. Materialda Azərbaycan Prezidentinin Fransanın Ermənistanı silahlandırmaqla militarist siyasət həyata keçirdiyini, revanşist qüvvələri təşviq etdiyini, regionda yeni müharibələrin başlaması üçün zəmin hazırladığını vurğuladığı bildirilir.

Bundan başqa, qeyd olunur ki, Azərbaycan Fransa hökumətinin marionetinə çevrilən Ermənistanı sülh müqaviləsinin bağlanması üçün danışıqları bərpa etməyə çağırır. Bildirilir ki, qarşılıqlı məqbul məkanın seçilməsi və ya dövlət sərhədində görüş barədə qərar verilməsi daxil olmaqla, sülh prosesinin davam etdirilməsinə görə iki ölkə məsuliyyət daşıyır. Azərbaycan Ermənistanı yeni lüzumsuz yubatmalara yol verməməyə çağırır və danışıqların tezliklə başlanması üçün onların bu çağırışa müsbət cavab verəcəyinə ümid edir.

Yazıda, həmçinin Azərbaycanın Beynəlxalq Ədalət Məhkəməsinin ölkəmizin suverenliyini və ərazi bütövlüyünü bir daha təsdiq edən, Ermənistanın Azərbaycanın Qarabağ üzərində uzun müddətdir qəbul edilmiş və beynəlxalq səviyyədə tanınmış suverenliyini şübhə altına alan tələbini rədd edən qərarını alqışladığı qeyd olunur.

Bildirilir ki, məhkəmə tərəfindən qeyd olunan tədbirlər Azərbaycan hökumətinin Qarabağın erməni sakinləri ilə bağlı artıq bəyan olunmuş siyasətini qəbul edir. Bu, milli və ya etnik mənşəyindən asılı olmayaraq bütün sakinlərin təhlükəsizliyini və mühafizəsini təmin etmək barədə Azərbaycanın öhdəliyini əhatə edir. Azərbaycan heç vaxt erməni sakinlərini Qarabağdan çıxarmayıb və regionu tərk etməmək barədə Azərbaycanın çağırışlarına baxmayaraq, Ermənistana və digər ölkələrə köçmək onların qərarı olub.

Vurğulanır ki, Azərbaycan öz Konstitusiyasına və müvafiq beynəlxalq öhdəliklərinə uyğun olaraq, Qarabağın erməni sakinlərinin insan hüquqlarını Azərbaycanın digər vətəndaşları ilə bərabər əsasda müdafiə etməyə sadiqdir. Azərbaycan Ermənistanın və bütün digər tərəflərin qanuni istintaq tədbirlərinə müdaxiləsini dayandıracağını gözləyir.

## Prezident İlham Əliyev BMT-nin Asiya və Sakit okean üzrə İqtisadi və Sosial Komissiyasının icraçı katibini qəbul edib

***Prezident İlham Əliyev noyabrın 23-də BMT-nin Asiya və Sakit okean üzrə İqtisadi və Sosial Komissiyasının (UNESCAP) icraçı katibi xanım Armida Salsiya Alişahbananı qəbul edib. Armida Salsiya Alişahbanan BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramının (SPECA) 25-ci ildönümündə Azərbaycanda Zirvə görüşünün keçirilməsinin əlamətdar hadisə olduğunu vurğulayaraq, bu münasibətlə ev sahibi və sədr qismində Azərbaycan Respublikasına təbriklərini çatdırdı.***



Dövlətimizin başçısı bildirdi ki, ölkəmiz 1992-ci ildə BMT-nin Asiya və Sakit okean üzrə İqtisadi və Sosial Komissiyasına üzv olub və Azərbaycanın bu təsisatın əksər üzv dövlətləri ilə yüksək səviyyədə siyasi münasibətləri var.

Xüsusilə nəqliyyat, rəqəmsallaşma, enerji sahələrində və qarşılıqlı maraq doğuran digər sahələrdə əməkdaşlıq üçün UNESCAP-ın vacib platforma olduğunu bildirən Prezident İlham Əliyev UNESCAP və SPECA regionları arasında gələcək əməkdaşlıq imkanlarının da mümkünlüyünə toxundu, nəqliyyat sahəsində işbirliyini xüsusilə qeyd etdi.

Dövlətimizin başçısı region ölkələri ilə birlikdə, xüsusən də Orta Dəhliz, Xəzər və Qara dənizləri birləşdirən nəqliyyat dəhlizlərinin inkişaf konsepsiyası haqqında məlumat verdi, nəqliyyat daşımalarının rəqəmsallaşdırılması, vahid tarif və standartların tətbiq edilməsinin vacibliyini diqqətə çatdırdı.

Söhbət zamanı ölkəmizin UNESCAP çərçivəsində Trans-Asiya dəmir yolu Sazişi şəbəkəsi, Asiya quru limanları üzrə hökumətlərarası Saziş və digər hökumətlərarası sazişlərdə iştirakı məsələsi qeyd edildi. Görüşdə ölkəmizlə UNESCAP arasında əlaqələrin genişləndirilməsi və bu təsisatın müvafiq iclaslarının Azərbaycanda keçirilməsinə dair məsələlər ətrafında fikir mübadiləsi aparıldı.





# “Ölkələrimiz arasında dostluq münasibətləri hərtərəfli inkişaf edir”

*Prezident İlham Əliyev Macarıstanın Baş naziri ilə görüşüb*



Azərbaycan Prezidenti İlham Əliyev Macarıstanın Baş naziri Viktor Orban ilə görüşüb. Macarıstanın Baş naziri Viktor Orban SPECA-nın Zirvə görüşündə fəxri qonaq qismində iştirak üçün dəvətə görə dövlətimizin başçısına təşəkkürünü bildirdi. O, Macarıstan xalqının ən xoş arzularını və Azərbaycanın suverenliyinin bərpası, regionda vəziyyətin sabitləşməsi münasibətilə Prezident İlham Əliyevə təbriklərini çatdırdı.

Prezident İlham Əliyev Azərbaycan ilə Macarıstan arasında əlaqələrin və dostluq münasibətlərinin hərtərəfli inkişafından məmnunluğunu ifadə etdi, ölkələrimizin ikitərəfli əsasda və Türk Dövlətləri Təşkilatı çərçivəsində yaxından əməkdaşlıq etdiyini, həmçinin SPECA-nın işbirliyi üçün yeni format yaratdığını vurğuladı.

Viktor Orban Macarıstanın Türk ailəsinə yaxınlaşmasında və Türk Dövlətləri Təşkilatı ilə münasibətlərin inkişaf etdirilməsində Azərbaycanın göstərdiyi dəstəyə görə təşəkkürünü bildirdi.

Dövlətimizin başçısı qeyd etdi ki, Azərbaycan ilə Mərkəzi Asiya ölkələri siyasi, iqtisadi, geosiyasi baxımdan vahid məkanı özündə əhatə edir. Ölkələrimiz arasında iqtisadi inteqrasiya daha da dərinləşir, Mərkəzi Asiyanı Xəzər dənizi və Qara dəniz ilə birləşdirən nəqliyyat, enerji, o cümlədən bərpaolunan enerji və digər sahələrdə yeni əməkdaşıq layihələri və platformaları inkişaf etdirilir.

Azərbaycanın işğaldan azad olunmuş Cəbrayıl rayonunun Soltanlı kəndinin təməlqoyma mərasiminin Macarıstanla birgə həyata keçirilməsinin böyük əhəmiyyətə malik olduğu qeyd edildi, bu layihənin macar şirkətlərinin iştirakı ilə icra olunacağı vurğulandı.

Görüşdə ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində də uğurla əməkdaşlıq etdiyi qeyd olundu. Azərbaycan ilə Macarıstan arasında iqtisadi-ticari, investisiya əlaqələrinin inkişafından məmnunluq ifadə edildi. Bu baxımdan ölkələrimiz arasında enerji sahəsində icra olunan layihələrin önəmi xüsusi vurğulandı, turizm, əczaçılıq, nəqliyyat-logistika sahələrində və digər sahələrdə əməkdaşlıq məsələləri müzakirə edildi.

# “İlham Əliyev. İnkişaf - məqsədimizdir” çoxcildliyinin 128-ci kitabı çapdan çıxıb




“İlham Əliyev. İnkişaf - məqsədimizdir” çoxcildliyinin 128-ci kitabı çapdan çıxıb. Çoxcildliyin yeni kitabında toplanmış materiallar 2023-cü ilin may ayını əhatə edir. May ayının mühüm hadisələrindən biri Prezident İlham Əliyevin ADA Universitetinin təşkilatçılığı ilə Şuşada Ulu Öndər Heydər Əliyevin100 illik yubileyinə həsr olunmuş “Böyük Avrasiya geosiyasətinin formalaşması: keçmişdən bu günə və gələcəyə” mövzusunda keçirilmiş IV beynəlxalq konfransda iştirakı olub. Həmin beynəlxalq konfransın materiallarının davamı yeni kitaba daxil edilib. Dövlətimizin başçısı konfrans iştirakçılarının çoxsaylı suallarını cavablandırıb. Türk Dövlətləri Təşkilatının inkişafında Azərbaycanın roluna dair suala Azərbaycan Prezidentinin verdiyi cavab onun digər fikirləri kimi aktuallığı, uzaqgörən hədəfləri və bəşəri məzmunu ilə diqqət çəkir.

Sitat: Türk Dövlətləri Təşkilatına gəldikdə, Azərbaycan təşkilatın bütün fəaliyyəti dövründə fəal olub. Vaxtilə onun adı fərqli olsa da, biz çox fəal olmuşuq. Bəzi vaxtlarda müəyyən ölkələrin fəallığı dəyişib, bəziləri daha fəal, digərləri az fəal olub. Elə dövr olub ki, Zirvə toplantıları müntəzəm keçirilməyib. Lakin Azərbaycan hər zaman mühüm ölkə olaraq qalıb. Təsadüfi deyil ki, təşkilatın yaradılması haqqında Bəyannamə 10 il bundan əvvəl Naxçıvanda qəbul edilib. Təşkilatın adının dəyişdirilməsi onun, sadəcə, necə adlandırılması məsələsi deyil. Burada mahiyyətdən söhbət gedir və biz görürük ki, təşkilata üzv olan ölkələr səylərini səfərbər etməlidir. Biz təşkilatı daha vacib beynəlxalq oyunçuya çevirə bilsək hər kəs bundan faydalanar. Bizim geniş coğrafiyamız, bəzi ölkələrin böyük təbii sərvətləri, o cümlədən enerji ehtiyatları, bəzi ölkələrin güclü hərbi imkanları var. Beləliklə, biz bütün bu səyləri birləşdirsək, qlobal səviyyədə ciddi oyunçu görə bilərik. Hesab edirəm ki, təşkilat qlobal güc mərkəzlərindən biri ola bilər və olmalıdır.

Prezident İlham Əliyev may ayında, həmçinin Laçın, Qubadlı, Zəngilan, Cəbrayıl, Xocavənd, Füzuli, Kəlbəcər və Şuşaya səfərlər edib, yaşayış məhəllələrinin, kəndlərin, məktəblərin, xəstəxanaların və digər obyektlərin təməlqoyma mərasimlərində, eyni zamanda, bir sıra obyektlərin açılışında iştirak edib, eləcə də bərpa-quruculuq işlərinin gedişi ilə tanış olub. Bütün bunlar haqqında informasiyalarla 128-ci kitabda tanış olmaq mümkündür.

Bu kitaba Prezident İlham Əliyevin Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi münasibətilə Şuşadan Azərbaycan xalqına müraciətinin mətni daxil edilib. Müraciətdə Azərbaycan xalqının müdrik xalq olduğu, ən çətin anlarda düzgün qərar qəbul etdiyi vurğulanır.

Sitat: Sabitlik inkişaf üçün, təhlükəsizlik üçün əsas şərtdir. Bu gün dünyanın bir çox yerlərində sabitlik pozulub, müharibələr, münaqişələr, toqquşmalar baş verir, o, ölkələri geriyə atır. Hər kəs bunu Azərbaycanın timsalında əyani şəkildə gördü ki, sabitlik olan yerdə əmin-amanlıq da var, inkişaf da var. Sabitlik üçün isə güclü lider lazımdır. Azərbaycan xalqı Heydər Əliyevin simasında güclü lideri seçərək, öz taleyini ona etibar etdi və yanılmadı. Azərbaycan xalqı müdrik xalqdır, dəfələrlə ən çətin anlarda, ən çətin dövrlərdə yeganə düzgün müdrik qərar qəbul edir”.

Çoxcildliyin 128-ci kitabında Prezident İlham Əliyevin Belçika Krallığına, Rusiya Federasiyasına işgüzar, Litva Respublikasına isə rəsmi səfərlərinə, eləcə də Azərbaycana gəlmiş İsrail Dövlətinin Prezidenti İshaq Hersoq ilə görüşünə, “Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi ilə İsrail Dövlətinin Səhiyyə Nazirliyi arasında səhiyyə və tibb elmi sahələrində 2023-2028-ci illər üçün Əməkdaşlıq Planı”nın imzalanmasına, liderlərin birgə mətbuata bəyanatlarla çıxışlarına aid materiallar yer alıb.

Yeni nəşrə Azərbaycan Prezidentinin bir sıra dövlətlərin ölkəmizə səfər etmiş parlament sədrləri ilə görüşlərinə dair informasiyalar daxil edilib.

Oxucu bu kitabda Prezident İlham Əliyevin “Bakı Ürək Günləri” VIII Beynəlxalq Konqresin, “Mina təhlükəsi ilə mübarizə - dayanıqlı inkişafa gedən yol” mövzusunda beynəlxalq konfransın, Bakı Enerji Həftəsinin iştirakçılarına müraciətlərinin mətnləri ilə də tanış ola bilər.

Yeni nəşrdə Prezident İlham Əliyevin Rəcəb Tayyib Ərdoğana zəng edərək prezident seçkilərində qazandığı qələbə münasibətilə təbrik etməsi haqqında informasiya, bu münasibətlə Türkiyə liderinə məktubunun mətni də verilib.

Prezident İlham Əliyev may ayında Bakı Ekspo Mərkəzində XVI Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı – “Caspian Agro” və XXVIII Azərbaycan Beynəlxalq Qida Sənayesi “Interfood Azerbaijan” sərgiləri ilə tanış olub, Taekvondo üzrə XXVI Dünya Çempionatının açılış mərasimini izləyib. Bütün bunlar haqqında informasiyalar da yeni kitabda yer alıb.

“Azərnəşr” tərəfindən buraxılan 128-ci kitabın hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.



# Azərbaycanla Vyetnam bir-birinin maraqlarına hörmət edən dost ölkələrdir

*YAP nümayəndə heyəti Vyetnam Kommunist Partiyasının Siyasi Bürosunun üzvü, Mərkəzi Komitəsinin Katibliyinin daimi üzvü və Təşkilat Komissiyasının sədri Çionq Txi May ilə görüşüb*







***Noyabrın 22-də Vyetnam Sosialist Respublikasında səfərdə olan Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi nümayəndə heyəti ilə Vyetnam Kommunist Partiyasının (VKP) Siyasi Bürosunun üzvü, Mərkəzi Komitəsinin Katibliyinin daimi üzvü və Təşkilat Komissiyasının sədri xanım Çionq Txi May arasında görüş keçirilib.***

Nümayəndə heyətini salamlayan Çionq Txi May Azərbaycanla Vyetnamın bir-birinin maraqlarına hörmət edən dost ölkə olduqlarını, çoxşaxəli münasibətlərin inkişafının məmnunluq doğurduğunu qeyd edib. O, "İstər dövlətlər, istərsə də partiyalar arasında hər bir təmas ümumi hədəflərimizə, ilk növbədə münasibətlərin inkişafına yönəlib və əməkdaşlığın genişlənməsinə xidmət edir" deyib.

Azərbaycanın qazandığı nailiyyətlərin dost Vyetnam xalqını sevindirdiyini bildirən Çionq Txi May ölkələrimiz arasında ənənəvi dostluq münasibətlərinin əsasının Vyetnam xalqının Lideri Ho Şi Min və Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev tərəfindən qoyulduğunu vurğulayıb. O bildirib ki, müasir dövrdə dövlət başçılarının diqqəti sayəsində inkişafa hədəflənən bərabərhüquqlu işbirliyinin gücləndirilməsi milli maraqlarımıza cavab verməklə uğurlu nəticələr vəd edir.

2017-ci ilin sentyabr ayında Azərbaycanda səfərdə olduğunu qeyd edən Çionq Txi May Prezident İlham Əliyevlə görüşünü məmnunluqla xatırlayıb və səfərin xoş təəssüratlarla yadda qaldığını diqqətə çatdırıb. O, Azərbaycan Prezidentinin həm ölkələrimiz, həm də partiyalarımız arasında münasibətlərin inkişafına xüsusi diqqət yetirməsinin böyük önəm daşıdığını vurğulayıb.

YAP ilə VKP arasında əlaqələrin genişləndirilməsinin əhəmiyyətinə diqqəti yönəldən Çionq Txi May "Əminəm ki, Yeni Azərbaycan Partiyasının nümayəndə heyətinin ölkəmizə səfəri faydalı olacaq, hərtərəfli əməkdaşlığa stimul verəcək. Xüsusilə də, bu səfər çərçivəsində partiyalarımız arasında Əməkdaşlıq Sazişinin imzalanması hər iki tərəf üçün yeni imkanlar yaradır. Ümid edirəm ki, bundan sonra da birlikdə addımlayaraq yeni uğurlar qazanacaq, dostluq münasibətlərimizin daha da möhkəmlənməsinə nail olacağıq ",- deyə bildirib.

Səmimi qəbula və yüksək qonaqpərvərliyə görə minnətdarlığını bildirən YAP Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov tarixi köklərə əsaslanan Azərbaycan-Vyetnam münasibətlərinin konstruktiv xarakter daşıdığını, dostluq əlaqələrinin möhkəmlənməsi və əməkdaşlığın dərinləşməsi fonunda mühüm perspektivlər vəd etdiyini diqqətə çatdırıb. Azərbaycanın Cənub Qafqaz regionunda, Vyetnamın isə Cənub-Şərqi Asiyada aparıcı mövqelərə malik olduğunu söyləyən Tahir Budaqov hər iki ölkənin milli maraqlara və müasir çağırışlara əsaslanan siyasət həyata keçirməklə davamlı sosial-iqtisadi inkişafı təmin etdiyini bildirib. O, iqtisadi-ticari, mədəni-humanitar, təhsil, turizm, enerji və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi, prioritet hədəflərin reallığa çevrilməsi üçün böyük potensialın olduğunu diqqətə çatdırıb: "Sizin də qeyd etdiyiniz kimi, ölkələrimiz arasında uzunmüddətli dostluq münasibətlərinin təməli xalqlarımızın öndərləri tərəfindən yaradılıb. Xalqlarımızın taleyində və dövlətçilik tariximizdə müstəsna yeri olan dahi liderlərin - Ho Şi Minin 1959-cu ildə Azərbaycana, Heydər Əliyevin isə SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini kimi 1983-cü ildə Vyetnama səfəri tariximizin önəmli və parlaq səhifələrindəndir. Qeyd etmək istəyirəm ki, Heydər Əliyevin səfəri o zaman təkcə SSRİ-Vyetnam münasibətlərinin inkişafı baxımından deyil, eyni zamanda, Azərbaycan ilə Vyetnam xalqları arasında dostluq əlaqələrinin möhkəmləndirilməsi nöqteyinəzərindən böyük əhəmiyyət daşımışdır. Müdrik dövlət xadimi Heydər Əliyev Azərbaycanın müstəqilliyinin bərpasından sonra ölkəmizə rəhbərlik etdiyi dövrdə də Vyetnam ilə münasibətlərin inkişafına ciddi diqqət yetirib".

Tahir Budaqov müasir dövrdə Azərbaycan-Vyetnam münasibətlərinin tarixi ənənələrə söykəndiyini və yeni çağırışlar əsasında inkişaf etdiyini bildirib. Prezident İlham Əliyevin 2014-cü ildə Vyetnama, Vyetnamın o zamankı Prezidenti Truong Tan Sangın isə 2015-ci ildə Azərbaycana səfərini xatırladan YAP Sədrinin müavini deyib: "Heydər Əliyev siyasətini uğurla davam etdirən Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev Vyetnamla əməkdaşlığın dərinləşdirilməsinə xüsusi diqqət yetirir. İki ölkənin fəal siyasi dialoqu tərəflər arasında çoxşaxəli işbirliyinin dərinləşməsini şərtləndirir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, "Biz ikitərəfli əlaqələrimizin bütün sahələrdə, o cümlədən siyasi, iqtisadi-ticari, mədəni-humanitar, təhsil və digər sahələrdə inkişafına böyük əhəmiyyət veririk". Dövlətlərimiz, eyni zamanda, beynəlxalq müstəvidə də bir-birinin maraqlarının müdafiəsinə böyük önəm verir, çoxşaxəli qarşılıqlı münasibətlərin milli mənafelər və beynəlxalq hüquq normaları əsasında inkişafını zəruri hesab edir".

Daimi təmasların istər ölkələr, istərsə də siyasi partiyalar arasında münasibətlərin inkişafına töhfə olduğunu söyləyən Tahir Budaqov qarşılıqlı səfərlərin önəminə diqqəti cəlb edib: "Yeni Azərbaycan Partiyası ilə Vyetnam Kommunist Partiyası arasındakı əlaqələr Azərbaycan-Vyetnam münasibətlərinin mühüm tərkib hissəsidir. Ötən il Vyetnam Kommunist Partiyasının nümayəndə heyətinin ölkəmizə səfərini məmnunluqla xatırlatmaq istəyirəm. Həmin səfər zamanı biz səmərəli fikir mübadiləsi apardıq, əlaqələrin genişləndirilməsi istiqamətində ardıcıl fəaliyyətin davam etdirilməsinin, yeni təşəbbüslərin irəli sürülməsi və reallaşdırılmasının vacibliyini bildirdik. Xüsusi vurğulamaq istəyirəm ki, Yeni Azərbaycan Partiyasının nümayəndə heyətinin Vyetnama hazırkı səfəri çərçivəsində faydalı təmaslarımız, məhsuldar görüşlərimiz oldu. YAP ilə VKP arasında Əməkdaşlıq Sazişi imzalamaqla dostluq və tərəfdaşlıq əlaqələrinin əsaslarını möhkəmləndirdik və işbirliyinin yeni istiqamətlərini müəyyənləşdirdik. Heç şübhəsiz, Sazişdən irəli gələn vəzifələrin icra olunması səmərəli nəticələr verəcək, yeni nailiyyətlər qazanaraq qarşılıqlı faydalı əməkdaşlığımızı daha da gücləndirəcəyik".

YAP Sədrinin müavini hər iki ölkənin parlamentləri arasında əlaqələrin sıxlaşdırılmasının Azərbaycan-Vyetnam münasibətlərinin inkişafı baxımından önəmli olduğunu diqqətə çatdırıb.

Azərbaycanın işğaldan azad olunmuş ərazilərində müasir texnologiyalardan istifadə etməklə genişmiqyaslı bərpa və yenidənqurma işlərinin aparıldığını bildirən YAP Mərkəzi Aparatının rəhbəri Vyetnam şirkətlərinin də bu prosesdə iştirakının arzuedilən olduğunu söyləyib. Tahir Budaqov yeni çağırışlar və reallıqlar fonunda Azərbaycan-Vyetnam münasibətlərinin uğurla inkişaf edəcəyinə əminliyini ifadə edib. Tərəflər qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparıblar.

Qeyd edək ki, YAP Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi nümayəndə heyətinə partiyanın Təftiş Komissiyasının sədri, Milli Məclisin deputatı Sevinc Hüseynova, YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov, partiyanın Mərkəzi Aparatının İnformasiya texnologiyaları və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Nurlan Qələndərov və Mərkəzi Aparatın Beynəlxalq əlaqələr və humanitar məsələlər şöbəsi müdirinin müavini Hülya Məmmədli daxildir.

# YAP nümayəndə heyəti ilə Quanq Nin Vilayəti Xalq Komitəsinin sədri arasında görüş keçirilib









*Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi nümayəndə heyətinin Vyetnam Sosialist Respublikasına səfəri çərçivəsində noyabrın 22-də Quanq Nin Vilayəti Xalq Komitəsinin sədri Kao Tuonq Huy ilə görüş keçirilib.*



Nümayəndə heyətini salamlayan Kao Tuonq Huy əvvəlcə Quanq Nin vilayəti haqqında ətraflı məlumat verib. O, Vyetnam ilə Azərbaycan arasında əməkdaşlığın hər iki ölkənin milli maraqlarına xidmət etdiyini, fəal siyasi dialoqun bütün sahələrdə əlaqələrin inkişafı üçün etibarlı zəmin yaratdığını qeyd edib. Vyetnamın ölkəmizlə münasibətlərin inkişafına, çoxşaxəli işbirliyinə önəm verdiyini diqqətə çatdıran Kao Tuonq Huy Azərbaycanın inkişaf modelinin böyük maraq doğurduğunu söyləyib. O, iki ölkənin regionları arasında da səmərəli işbirliyinin formalaşdırılmasının vacib və perspektivli olduğunu deyib.

Kao Tuonq Huy Yeni Azərbaycan Partiyası ilə Vyetnam Kommunist Partiyası (VKP) arasında əlaqələrin genişləndirilməsinin ölkələrimizin mənafelərinə cavab verdiyini bildirib. Yeni Azərbaycan Partiyasının nümayəndə heyətinin səfəri çərçivəsində YAP ilə VKP arasında Əməkdaşlıq Sazişinin imzalanmasının əhəmiyyətindən bəhs edən Kao Tuonq Huy partiyalar arasında sıx əməkdaşlığın Azərbaycan-Vyetnam münasibətlərinə dinamizm gətirəcəyinə inamını ifadə edib.

Qonaqpərvərliyə görə nümayəndə heyəti adından minnətdarlığını bildirən YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Azərbaycan ilə Vyetnamın bir-birinin maraqlarına hörmət edən dost ölkələr olduğunu söyləyib. YAP Sədrinin müavini bildirib ki, iki ölkə arasında bir çox sahədə səmərəli əməkdaşlıq əlaqələri formalaşdırılıb və işbirliyinin genişləndirilməsi üçün real imkanlar mövcuddur.

Azərbaycanın regionlarının dinamik inkişafa və geniş potensiala malik olduğunu qeyd edən YAP Sədrinin müavini iki ölkənin bölgələri arasında da əməkdaşlığın perspektivli olduğunu, bu məsələnin xüsusi diqqət mərkəzində saxlanılmasının əhəmiyyətini diqqətə çatdırıb.

Bu gün yüksələn xətt üzrə inkişaf edən Azərbaycan-Vyetnam münasibətlərində partiyalararası əlaqələrin mühüm rol oynadığını diqqətə çatdıran Tahir Budaqov qarşılıqlı səfərlərin həm təcrübə mübadiləsi, həm də sistemli əməkdaşlıq üçün önəmli olduğunu vurğulayıb. O, YAP ilə VKP arasında Əməkdaşlıq Protokolu imzalanması ilə ikitərəfli münasibətlərdə keyfiyyətcə yeni mərhələnin əsasının qoyulduğunu, qarşılıqlı öhdəliklərin yerinə yetirilməsi nəticəsində əlaqələrin dinamik inkişaf edəcəyini bildirib. Tərəflər qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparıblar.

Qeyd edək ki, YAP Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi nümayəndə heyətinə partiyanın Təftiş Komissiyasının sədri, Milli Məclisin deputatı Sevinc Hüseynova, YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov, partiyanın Mərkəzi Aparatının İnformasiya texnologiyaları və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Nurlan Qələndərov və Mərkəzi Aparatın Beynəlxalq əlaqələr və humanitar məsələlər şöbəsi müdirinin müavini Hülya Məmmədli daxildir.

# Qərbdən gələn qeydiyyatsız qrantlar Azərbaycanda necə realizə edilir?



**MÜNASİBƏT**

"Azərbaycan dövləti şəffaflığı təmin etmək üçün, əlbəttə ki, mümkün olan bütün addımları atıb, atır və atmağa da davam edəcək. Çox təəssüflər olsun ki, bizə demokratiyadan, şəffaflıqdan, qanunçuluqdan danışan qərb fondları, qərb təşkilatları, hətta, qərb dövlətləri bu cür məsələlərdə Azərbaycan dövləti ilə həmrəy deyillər. Yəni, bir şeyi danışıb başqa şey edirlər. Ona görə də, dövlət mümkün qədər çalışır ki, qərbdən gələn qrantların şəffaflığını təmin etsin. Amma, təəssüflər olsun ki, o qrantlar hesabına Azərbaycanda, guya, insan haqları, demokratiya uğrunda mübarizə apardığını iddia edən şəxslər faktiki olaraq özləri qanunları pozur və gizli şəkildə maliyyə əldə edirlər. Həmçinin, o maliyyənin necə xərclənməsi ilə bağlı hər hansı hesabat və cəmiyyətə açıqlamalar vermirlər". Bu sözləri SİA-ya açıqlamasında siyasi şərhçi Azər Həsrət deyib.

Azər Həsrət sözlərinə belə davam edib: "Onlar ümumiyyətlə, şəffaflıq sərgiləmirlər. Bu da ölkədə qanunsuz fəaliyyətə gətirib çıxarır. Qanunsuz fəaliyyət olunca da, əlbəttə ki, dövlət hərəkətə keçməlidir, keçir və o şəxslərə qarşı tədbir görür. Tədbir də görəndə, yenə də, o qərb institutları ölkədə, guya, ifadə, fəaliyyət və vətəndaş cəmiyyəti azadlığının pozulduğunu iddia edir. Bax, belə bir durum var.




Əlbəttə ki, o pullar necə xərclənir, biz bunu illər öncə də demişik. Bu gün də eyni sxem işləyir. Yəni, adamların şəxsi hesablarına maliyyə göndərilir, onların adına bank kartı açılır. Həmin bank kartları Azərbaycandan kənardakı bankların kartlarıdır. Yəni, Azərbaycan dövlətinin nəzarətindən kənar tuta bilmək üçün bunu edirlər. Və çox zaman da bu kartlar, ümumiyyətlə, adsızdır. Yaxud da ki, mümkün olduqca nağd şəkildə pulu başqa ölkədə, hətta, Azərbaycanın daxilində ötürürlər. Yəni, bütün bunlar da qanunsuz fəaliyyətdir. Ona görə də, dövlət onlara qarşı tədbir görməyə məcburdur. Yəni, biz həmişə demişik ki, istər qərbdən, istər ölkə içindən qrant alan qurumlar, şəxslər bununla bağlı açıq hesabatlar verməli, şəffaf olmalıdırlar. Amma göründüyü kimi o sözdə demokratiya aşiqləri o qrantları alır, xərcləyir, hər hansı hesabat vermir, şəffaflıqdan da söz gedə bilməz. Bax, belə bir sxem işləyir. Ona görə də, bu dövlət üçün çox ciddi təhlükədir. Yəni, şəffaflıqdan yayınanların fəaliyyətləri də təbiidir ki, dövlətin və xalqın faydasına yönəlik deyil. Əlbəttə ki, belə olanda dövlət onlara qarşı tədbir görməyə məcburdur".

***Ayşən Vəli***



# Bioyanacaq və torpaq uğrunda yarış

*Dünyanın müxtəlif regionlarında ənənəvi enerji resurslarının mövcudluğundakı fərqlər bioyanacaq istehsalı sənayesinin inkişafında prioritetləri müəyyən edib. Bioyanacaqların istehsalı və istifadəsi ilə bağlı müxtəlif sosial, iqtisadi, ekoloji və texniki problemlər var ki, bunlar mediada və elmi jurnallarda geniş müzakirə olunur. Bunlara aşağıdakılar daxildir: neft və digər enerji qiymətlərinin təsiri, davamlı bioyanacaq istehsalı imkanları, qidaya qarşı yanacaq müzakirələri, yoxsulluğun azaldılması potensialı (xüsusilə inkişaf etməkdə olan ölkələrdə), karbon dioksid emissiya səviyyələri, meşələrin qırılması və torpaq eroziyası, biomüxtəlifliyin itirilməsi, su ehtiyatları, bioyanacaq mühərriklərinin modernləşdirilməsi üçün lazım olan mümkün dəyişikliklər və ümumilikdə bioyanacaq istehsalının enerji balansı və səmərəliliyi. Biz iki böyük istehsalçının nümunələrindən istifadə edərək bu məsələlərin bəzilərini anlamağa çalışacağıq.*




### Böyümənin sürücüləri

Digər bərpa olunan enerji mənbələrindən fərqli olaraq, biokütlə birbaşa maye və ya bərk yanacağa çevrilə bilər. Həm maye, həm də bərk bioyanacaq istilik və enerji istehsalı üçün də istifadə edilə bilər. Ən çox yayılmış maye bioyanacaq ilk növbədə ənənəvi olaraq neft məhsullarından istifadə edən nəqliyyat sektorunun ehtiyaclarını ödəmək üçün istifadə olunur. 2022-ci ildə maye bioyanacaqlara tələbat rekord səviyyəyə - 4,3 eJ (170 milyard l) çatıb. Bu gün istifadə edilən maye bioyanacaqların ən çox yayılmış iki növü etanol və biodizeldir. Biokütlədən və ya poliqon qazından istehsal olunan qaz yanacaqları (məsələn, tullantıların çürüdüyü zaman poliqonlarda istehsal olunan metan) birbaşa qaz kimi istifadə edilə və ya maye yanacağa çevrilə bilər. Bu bioyanacaqların əksəriyyəti dünyanın bir sıra regionlarında bioyanacaqdan istifadəni təşviq edən və ya tələb edən müxtəlif dövlət proqramlarında istifadə üçün uyğundur.

Hökumət qanunvericiliyində və təşviq proqramlarında, eləcə də sənaye brendinqi və marketinqində istifadə olunan müxtəlif bioyanacaq növləri üçün terminologiya əhəmiyyətli dərəcədə dəyişir. Məsələn, bioyanacaq adlarına "bio" ("biodizel" və ya "biojet" kimi) və ya "qabaqcıl", "alternativ", "təmiz", "yaşıl", "aşağı karbon", "bərpa olunan" və ya "davamlı" sözləri daxil ola və bəzi hallarda istehlakçıları çaşdıra bilər. Buna görə də, bir çox digər sahələrdə olduğu kimi, bunları bir-birindən ayırmaq lazımdır.

### ABŞ-ın bioyanacaq dərdi

2007-ci ildə Konqres Enerji Müstəqilliyi və Təhlükəsizliyi Aktını (EISA) "Birləşmiş Ştatları daha böyük enerji müstəqilliyinə və təhlükəsizliyinə doğru hərəkət etdirmək və təmiz, bərpa olunan yanacaqların istehsalını artırmaq" məqsədi ilə qəbul etdi. Bu məqsədlərə uyğun olaraq, EISA nəqliyyat yanacaqları ilə qarışdırmaq üçün tələb olunan bərpa olunan yanacağın miqdarını ildə 130 milyard litrə çatdırmaq üçün addımlar müəyyən etdi. Ətraf Mühitin Mühafizəsi Agentliyi ABŞ Kənd Təsərrüfatı və Energetika Departamentləri ilə məsləhətləşərək Bərpa Olunan Yanacaq Standartları (RFS) Proqramının ətraf mühitə və resursların qorunmasına təsirlərini hər üç ildən bir qiymətləndirməli və Konqresə hesabat verməli idi. Konqresə verilən ilk hesabat 2011-ci ildə tamamlanıb və ətraf mühitə və resursların qorunmasına təsirin qiymətləndirilməsinə dair aşağıdakı nəticələrdən ibarət olub:

- artan bioyanacaq istehsalının və istifadəsinin ətraf mühitə təsirləri çox güman ki, mənfi, lakin təsir baxımından məhdud idi;
- gələcəkdə həm müsbət, həm də mənfi təsirlərin olma ehtimalı var;
- Ən yaxşı təcrübələrdən istifadə edilərsə və ikinci nəsil bioyanacaq xammalının (qarğıdalı sobası, çoxillik otlar, odunlu biokütlə, yosunlar və tullantılar) istifadəsini asanlaşdırmaq üçün texnologiyalar hazırlanarsa, EISA-nın bioyanacaq istehsalı hədəflərinə minimum ətraf mühitə təsirlə nail olmaq olar.

2007-ci ildən bəri ABŞ-da əsasən qarğıdalıdan bioyanacaq istehsalı iki dəfədən çox artıb. Bu, kənd təsərrüfatı və yanacaq bazarları üçün gözlənilməz nəticələrlə bağlı narahatlıq yaradır. Bioyanacaqların yayılması kənd təsərrüfatı qiymətlərində ilkin böyük artıma səbəb oldu, lakin məhsuldarlıq artdıqca və məhsul nümunələri zamanla dəyişdikcə, bu təsir bir qədər azaldı. Torpaqdan dolayı istifadə dəyişikliyinə dair modelləşdirilmiş təxminlər və bioyanacaqlardan gələn İXQ emissiyalarının intensivliyi də ilkin səviyyələrdən kəskin şəkildə aşağı düşüb. Bundan əlavə, bioyanacaq istehsalının artması qalıq yanacaq qiymətlərinin çox cüzi enişinə səbəb oldu. Nəhayət, miqyas iqtisadiyyatı və texnoloji təkmilləşdirmələr qarğıdalı bioyanacaqlarını daha rəqabətqabiliyyətli edib, subsidiyalara və idxal tariflərinə ehtiyacı azaldıb. ABŞ-ın İnflyasiya ilə Mübarizə Aktı (IRA) 2031-ci ilə qədər 9,4 milyard dollar dəyərində təxmin edilən bioyanacaq istehsalına və investisiyaya dəstək verir.




### Braziliyada durum və investisiyaları

1973-cü il neft böhranı zamanı Yaxın Şərqin neft hasil edən ölkələri neft embarqosu elan etdilər və bu, dünya neft qiymətlərinin bir neçə ay ərzində dörd dəfə artmasına səbəb oldu. Buna cavab olaraq, Braziliya bioyanacaq istehsalına və infrastruktura sərmayə qoymağa başladı. Bu gün ölkə etanolun dünyanın ən böyük istehsalçıları və istehlakçılarından biridir, istehsalına görə ABŞ-dan sonra ikinci, istehlaka görə isə ABŞ və Almaniyadan sonra ikinci yerdədir. Braziliyanın donanmasında təmiz etanol, təmiz benzin və ya hər ikisinin qarışığı ilə işləyə bilən çevik yanacaq modelləri üstünlük təşkil edir. Bütün Braziliyadakı yanacaqdoldurma məntəqələri saf etanol satmaq üçün təchiz edilib.

*Ardı Səh. 7*

# Bioyanacaq və torpaq uğrunda yarış




Əvvəli-Səh-6

Etanol adi benzinin enerji tərkibinin yalnız 70%-ni təşkil etdiyindən, qiyməti benzinin 70%-dən az olduğu halda istehlakçılar ümumiyyətlə benzinə üstünlük verirlər. Hətta Braziliyadakı “adi” benzinin tərkibində qarışıqda 27%-ə qədər etanol var. Braziliya biodizel istifadə payını 2022-ci ildəki 10%-dən 2026-cı ilə qədər 15%-ə çatdırmağı planlaşdırır. Bu amillər Braziliyanı həm yerli istehsal, həm də idxal olunan (əsasən ABŞ-dan) bioyanacaq üçün mühüm bazara çevirir.

2022-ci ildə Braziliyada ümumi etanol istehsalı 2021-ci ildən 6% artaraq 31,66 milyard litr, 2023-cü ildə isə 2022-ci ildən 7% artaraq 32,95 milyard litr olaraq qiymətləndirilir. Şəkər qamışı istehsalında gözlənilən artımlar və qarğıdalı etanol istehsalında davamlı artımlar səbəb olur. ABŞ-dan fərqli olaraq, Braziliya etanolunun 96%-i şəkər qamışından istehsal olunur. Ölkədə 350-yə yaxın belə zavod var və onlar əsasən sahil boyu cəmləşib. Bununla belə, son illərdə Braziliya etanolunun kiçik, lakin artan payı qarğıdalıdan istehsal edilmişdir. Növbəti onillikdə sənayenin sürətlə genişlənəcəyi gözlənilir. Braziliya 2019-cu ildə 1,33 milyard litr qarğıdalı etanol istehsal edib, lakin bu həcmin 2028-ci ilə qədər 8 milyard litrə qədər artacağı proqnozlaşdırılır (Milli Qarğıdalı Etanol İstehsalçıları İttifaqı - UNEM, yeni yaranmaqda olan sənayeni təmsil edən ticarət birliyinə görə). Eyni zamanda, ölkənin yeni RenovaBio karbon kredit proqramı ilə dəstəklənən Mədən və Energetika naziri Braziliyada etanol istehlakının 2029-cu ilə qədər 43 milyard litrə yüksələcəyini proqnozlaşdırır. Tələbdə gözlənilən bu artım, hazırda ölkədə 100 milyon tondan çox məhsul istehsal edən qarğıdalıdan Braziliyada etanol istehsalının genişləndirilməsinə investisiya qoyuluşuna təkan verir.

Braziliyada qarğıdalı etanol istehsalındakı artımın çox hissəsi, ilk növbədə mərkəzi-qərb bölgəsində yetişdirilən və illik soya məhsulundan sonra əkilən safrinha kimi tanınan ikinci məhsul qarğıdalının artan becərilməsinin nəticəsidir. Braziliyanın özəl məsləhətçi şirkəti Agroconsult-un məlumatına görə, Braziliyanın ikinci qarğıdalı məhsulu son on ildə iki dəfədən çox artaraq 2022/23 vegetasiya mövsümündə 100 milyon tondan çox təxmin edilən rekorda çatıb. Bu, əvvəlki illə müqayisədə 11% çoxdur. 2022/23 vegetasiya mövsümündə safrinha qarğıdalı Braziliyanın qarğıdalı istehsalının dörddə üçündən çoxunu təşkil edir.

*Qida yanacağa qarşı – Qlobal ərzaq ehtiyatlarının zərərinə əkin sahələrinin və resursların bioyanacaq istehsalına yönəldilməsi riski ilə bağlı bu mübahisə onilliklərdir ki, davam edir. Bir sıra araşdırmalar göstərib ki, kənd təsərrüfatı məhsullarının bahalaşmasının əsas səbəbi bioyanacaq, onların istehsalı və subsidiyalardır.*

## Bioyanacaq istehsal edən fabriklər əsas komponent kimi

İlk məhsullar yay musson mövsümündə şəkər qamışı mövcud olmadığı zaman qarğıdalı istifadə etməyə çevrilən şəkər dəyirmanlarından gəlib. Qarğıdalı etanol bitkiləri onu il boyu istehsal edə və qarğıdalı yağı, distillə edilmiş qurudulmuş taxıl (DDG) və həll olunan maddələrlə distillə qurudulmuş taxıl (DDGS) kimi müxtəlif əlavə məhsullar istehsal edə bilər. Hazırda Braziliyada qarğıdalıdan xammal kimi istifadə edən 20 etanol zavodu var. Bitkilərin doqquzu yalnız qarğıdalı bitkiləri, qalanları isə şəkər qamışı və qarğıdalıdan etanol istehsal edən çevik vaxtlı bitkilərdir. Bundan əlavə, daha 10 müəssisə tikintiyə icazə alıb. Proqnozlara görə, bu, Braziliyaya 2030/31 mövsümünə qədər istehsal gücünü 9,6 milyard litr qarğıdalı etanoluna çatdırmağa imkan verəcək.

Müəssisələrin istehsalının sərərəliliyi onların hansı məhsulu emal etməsindən asılıdır. UNICA-ya görə, etanol şəkər qamışından ton başına 80-85 litr, qarğıdalıdan isə ton başına 410-430 litr məhsuldarlıqla istehsal edilə bilər. Bununla belə, müxtəlif məhsuldarlığı nəzərə alsaq, şəkər qamışının etanolundan hektardan 6500-7500 litr, qarğıdalı etanolu isə 2000-3500 litr məhsul verir.

Braziliyanın mərkəzi və qərbində ucuz safrinha qarğıdalısının mövcudluğu milli və beynəlxalq şirkətləri Braziliyada qarğıdalı etanol istehsalına investisiya qoymağa cəlb edən əsas amildir. Bu bölgədə qarğıdalı qiymətləri ümumiyyətlə heyvandarlıq və quşçuluq sənayesinin cəmləşdiyi Cənub bölgəsindən aşağıdır. Braziliyada istehsal olunan qarğıdalının təxminən 50%-i heyvan yemi kimi, 10%-i isə daxili bazarda etanol bitkiləri üçün istifadə olunur. Qalan qarğıdalı istehsalının təxminən 30%-i ixrac üçün nəzərdə tutulub. Qarğıdalı şəkər qamışına nisbətən bəzi üstünlüklərə malikdir, lakin qarğıdalı bəzi problemlər də yaradır. Braziliyadakı etanol zavodları biokütləni yandırır, çünki təbii qaza çıxış çox bahalı ola bilər. Qarğıdalı etanol sektorunun böyüməsini məhdudlaşdıran bəzi amillər var. Onlardan biri də mərkəzi-qərb bölgəsində əhalinin sıxlığının aşağı olmasıdır ki, bu da yerli yanacağa tələbatın azalmasına səbəb olur.

## Torpaq məsələsi

Dünya üç qlobal böhranla üzüzədir - ekoloji, enerji və qida. Müəyyən bir regionda demoqrafik durğunluq və ya əhali artımında dəyişən meyllər bu amillərin hər birinə təsir edə bilər. Dünya əhalisi artdıqca qlobal səviyyədə enerji və qida ehtiyaclarının nisbəti də artacaq. Beləliklə, bu, enerji və qida sənayesi arasında rəqabətin artmasına səbəb ola bilər.

Qida yanacağa qarşı – Qlobal ərzaq ehtiyatlarının zərərinə əkin sahələrinin və resursların bioyanacaq istehsalına yönəldilməsi riski ilə bağlı bu mübahisə onilliklərdir ki, davam edir. Bir sıra araşdırmalar göstərib ki, kənd təsərrüfatı məhsullarının bahalaşmasının əsas səbəbi bioyanacaq, onların istehsalı və subsidiyalardır. Eyni zamanda, həm dünya yoxsullarının əksəriyyətinin əsas qida rasionunu təmin edən qarğıdalı və manok kimi əsas qidalara, həm də əsas pəhrizləri əlavə etmək üçün lazım olan digər ərzaq məhsullarına tələb və qiymətlər artır. Beynəlxalq Ticarət və Davamlı İnkişaf Mərkəzinin son araşdırması göstərir ki, ABŞ-da genişlənmiş etanol istehsalı 2009-cu ildə etanol istehsalının 2004-cü ildə dondurulduğu qiymətlərlə müqayisədə qarğıdalı qiymətlərinin 21% artmasına səbəb olub. Əks arqument bioyanacaqda istifadə olunan qarğıdalı növü ilə bağlı mülahizələri ehtiva edir. Çünki bu növ qarğıdalılar insan istehlakı üçün uyğun deyil və etanol istehsalında istifadə edilən qarğıdalıların bir hissəsi nişasta istehsalı üçün istifadə olunur. Digər tərəfdən, qarğıdalı və taxılın bahalaşması fermerlərin və dövlətin rifahına faydalı təsir göstərir. Qidaya qarşı yanacağa və ya qidaya qarşı yanacağa qarşı mübahisə beynəlxalq miqyasda mübahisəlidir, bunun nə qədər vacib olduğu, nəyin səbəb olduğu, nəticələrinin nə olduğu və bununla bağlı nə edilə və ya edilməli olduğu barədə fikir ayrılığı var.

Bəzi elmi işlər bioyanacaqların bərpa olunan və ekoloji cəhətdən təmiz olduğunu göstərsə də, digər tədqiqatçılar bioyanacaqların ətraf mühitə zərərli olması, ərzaq qarğıdalı və soyanın ixracını azaltması, ərzaq məhsullarının qiymətlərinin artması və daha çox kənd təsərrüfatına aid olmayan torpaqların kənd təsərrüfatı təyinatlı torpaqlara çevrilməsi qənaətinə gəliblər.

ABŞ-da soya yağından istehsal olunan biodizelin ilk hərtərəfli həyat dövrü analizlərindən biri “Sheehan et al.” 1998-ci ildə olub. Göstərilib ki, biodizel istehsalının həyat dövrü ərzində istifadə olunan hər bir qalıq yanacaq vahidi üçün biodizeldən 3,2 vahid enerji hasil edilir. Tədqiqat həmçinin müəyyən edib ki, biodizeldən istifadə təmiz istixana qazı (İQ) emissiyalarını 78,45% azaldır.

Torpaqdan dolayı istifadə dəyişiklikləri də daxil olmaqla bioyanacaqların başqa bir həyat dövrü təhlili 2008-ci ildə dərc edilmişdir. Müəlliflər iddia edirdilər ki, “bioloji yanacaq istehsal etmək üçün fermerlər daha çox meşələri və ya otlaqları şumlaya, bitkilərdə və torpaqlarda əvvəllər yığılmış karbonun çox hissəsini parçalanma və ya yanğın vasitəsilə atmosferə buraxa bilərlər. Yetkin meşələrin və çəmənliklərin itirilməsi də bitkilər böyüdükcə karbonun tutulmasının qarşısını alır. Bu buraxılmış bağlama əlavə emissiyalara bərabərdir. Alternativ olaraq, fermerlər mövcud məhsulları və ya əkin sahələrini oxşar dolayı emissiyalara səbəb olan bioyanacaqa çevirə bilərlər. Bütün dünyada fermerlər məhsulu yem və qida ilə əvəz etmək üçün daha çox meşələri və otlaqları kəsməklə cavab verirlər”. Qlobal kənd təsərrüfatı modelindən istifadə edərək, kağız 56 milyard litr qarğıdalı etanolunun istehsalının qarğıdala olan tələbatın artmasına səbəb ola biləcəyini proqnozlaşdırdı. Eyni zamanda, əvvəllər soya və buğda yetişdirmək üçün istifadə edilən torpaqlar qarğıdalıya çevriləcək, qarğıdalı, soya və buğdanın qiymətləri müvafiq olaraq 40%, 20% və 17% artacaq. Eyni zamanda, ABŞ-ın kənd təsərrüfatı məhsullarının ixracının kəskin şəkildə azala biləcəyi (qarğıdalı 62%, buğda 31%, soya 28%, donuz əti 18% və toyuq 12%) gözlənilir. Digər ölkələr ABŞ ixracını əvəz etdikcə fermerlər başqa gəlir mənbələri tapmalı olacaqlar.

Texnologiyaların inkişafı və bioyanacaq istehsalı üçün qida bitkilərindən istifadənin artması qida və bioyanacaq sənayesi arasında rəqabəti artıra bilər. Çoxsaylı araşdırmaların ziddiyyətli nəticələri ictimai rəyin formalaşmasında çaşqınlığa səbəb olub. Bu kontekstdə, əkin sahələrinin ayrılmasını tələb etməyən Braziliyada qarğıdalı etanol istehsalı nümunəsi son dərəcə vacibdir, çünki əvvəllər soya tərəfindən işğal edilmiş sahələr təkrar istifadə olunur. Bununla belə, bu təcrübə əkinçilik üçün eyni dərəcədə əlverişli şəraitə (günəş radiasiyası, su, torpaq və s.) malik regionlarda təkrarlana bilər.

Qida sektorunun iqtisadiyyatı qlobal miqyasda bioyanacaq sektoru ilə müqayisədə kifayət qədər davamlı deyilsə, bu, bir sıra davamlı inkişaf məqsədlərinə nail olmaq qabiliyyətinə açıq şəkildə təsir göstərəcək. Mümkündür ki, bioyanacaq bitkilərinin geniş miqyasda inkişafı, xüsusən də “qızıl milyard”ın ehtiyaclarını ödəmək və onların karbonsuzlaşdırılması məqsədləri ən yoxsul icmaları torpaq və xammala çıxış problemi kimi əlavə risklərə məruz qoya bilər.

Bitki, heyvan xammalından, orqanizmlərin tullantı məhsullarından alınan bioyanacaqdan bu gün dünya əhalisinin 38%-i istifadə edir. Ötən 20 ildə dünyada bioyanacaq istehsalı 4 dəfə artıb. Azərbaycanda 2013-2020-ci illər ərzində tullantıların yandırılmasından alınan enerjinin miqdarı isə təqribən 50% artıb. Yaponiyanın “Euglena” startap şirkəti dəniz yosunlarından təyyarələr və avtobuslar üçün yanacaq hazırlamaq məqsədilə bioyanacaq istehsal edən təmizləyici zavod inşa edib. Tokio yaxınlığındakı Yokohama şəhərində yerləşən həmin zavodda dəniz yosunu evqlenadan alınan bitki yağı ictimai iaşədə istifadə edilmiş bitki yağları ilə qarışdırılaraq, təyyarələr üçün yanacaq istehsal ediləcək. Bununla yanaşı, evqlenadan avtobuslar və digər nəqliyyat vasitələri üçün biodizel yanacağının istehsal edilməsi də planlaşdırılır.

**V.VƏLİYEV**

***P.S.** Məqalədə xarici mənbələrə istinadlar var.*

# Ən doğru olan VASİTƏÇİSİZ SÜLH DANIŞIQLARI

*Cəmi 44 gün davam edən müharibədə rüsvayçı məğlubiyyətlə qarşılaşdıqdan, itkilər verdikdən sonra Ermənistanın hansı duruma düşdüyünü hamıdan yaxşı bilən ermənilər tarixi seçim qarşısında qaldıqlarını da dərk etməli idilər. Dərk etməli idilər ki, baş nazir Nikol Paşinyan kapitulyasiya sənədinə imza atmaq məcburiyyətində qalıbsa, deməli, Ermənistan artıq doğru olmayan yolun sonuna çatıb və işğalçılıq yolunu deyil, doğru yolu, qonşularla sülh şəraitində yaşamaq yolunu tutmalıdır. Belə bir doğru yolu seçərək, bir dövlət kimi özünü təsdiq etmək şansını əldən verməməyin vacibliyi məhz zamanında dərk edilsəydi, hər halda, sülh danışıqları bu vaxta qədər uzanmazdı.*



Təhlil

Öz məğlubiyyətlərindən lazımi dərs almasalar da, "miatsum" arzularının tez bir zamanda puç olmasından da olsa, haylar doğru nəticə çıxarmalı idilər. "Böyük Ermənistan" adlı mifin təsiri altında olan ermənilər arzularının da, istəklərinin də puç və mənasız olduğunu gördükləri zaman heç olmasa həmin təsir altından çıxmalı idilər. Həmin təsir altından çıxmaqla, eləcə də ağılsız ideyaları, qondarma mifləri bir kənara qoyub normal qonşuluq münasibətlərinə başlamaqla, ermənilər heç olmasa balaca Ermənistanın dövlətçiliyini təhlükədən xilas etmək üçün əməli addımlar atmalı, sülh danışıqlarına nail olunması üçün əllərindən gələni əsirgəməməli idilər. Əsirgəməməli idilər ki, bundan sonra da olsa yalandan deyil, həqiqətən suveren, müstəqil bir dövlət olmaq şanslarını əldən verməsinlər və heç olmasa bundan sonra hansısa bir ölkənin oyuncağı olmaqdan yaxa qurtarsınlar. Amma bu vaxta qədər məsələnin həllini, sülh danışıqları ilə bağlı müzakirələri, öz müqəddəratını ya Rusiyada, ya da Qərbdə axtarmalı oldu deyə, Ermənistan hələ də müəmmalı vəziyyətdədir. "Böyük Ermənistan" mifini reallaşdırmaq istəyən, ölkələrinin "yekə" olmasını arzulayan haylar, gec də olsa, kiçik Ermənistanı itirmək təhlükəsini dərk etməli, bu kiçik ölkənin dövlətçiliyini də təhlükə altına qoyduqlarının fərqində olmalıdırlar.

Bu vaxta qədər hayları türk dünyasına qarşı qızışdıranlar, onları "partlayış" yaradan, qarşıdurma törədən kimi görənlər, Azərbaycanın qələbəsindən və söz sahibinə çevrilməsindən sonra daha da aktivləşiblər. Ermənistanın müstəqilliyinin, suverenliyinin məhz Azərbaycan tərəfindən təhdid altında olduğu barədə şayələr buraxan həmin o hayları qızışdıranların Ermənistan torpaqlarını Azərbaycanın ələ keçirəcəyi barədə proqnoz verməkdə yox, öncəgörücülər və falçılar kimi birbaşa əminliklə fikirlər səsləndirmələri planlaşdırdıqları çirkin niyyətdən xəbər verir. Belə ki, artıq öz kölgəsindən belə qorxan hayların kürklərinə birə salmaqla, Ermənistanda öz hərbi mövcudluqlarının vacibliyini gündəmə gətirirlər. Bir sözlə, Cənubi Qafqaza soxulmaq, mövcudluqlarını təmin etmək üçün belə bir variantdan istifadə edirlər, halbuki Azərbaycanın hansısa bir ölkənin ərazisini ilhaq etmək kimi bir niyyəti qətiyyən olmayıb və yoxdur. Deməli, həmişə olduğu kimi, yenə də Ermənistandan istifadə edilir və bu ölkə kimlərinsə siyasəti üçün alət hesab olunur və haylar bunu başa düşmədikcə, alət olaraq bundan sonra da istifadə olunacaqlarını bilməlidirlər.

Haylar gec də olsa başa düşməlidirlər ki, Azərbaycan əldə etdiyi qələbələri ilə öz istədiyinə nail olub və əgər ölkəmiz öz qələbələrindən sonra Ermənistana sülh təklifi edirsə, deməli, həmin ölkəni ilhaq etmək niyyətində ola bilməz. Başa düşməlidirlər ki, rəsmi Bakı beynəlxalq hüquqla Ermənistan ərazisi kimi tanınan ərazilərə iddialı deyil və Azərbaycana başqasının torpaqları lazım da deyil. Dərk etməlidirlər ki, Azərbaycan beynəlxalq hüquqn norma və prinsipləri çərçivəsində özünə məxsus olan torpaqları işğaldan azad edib, geri qaytarıb və suverenliyini tam bərpa edib və sülh təklifi ilə çıxış edərək, normal qonşuluq edilməsi barədə istəyini bəyan edib. Hətta haylar unutmamalıdırlar ki, tarix boyu qalib tərəf məğlub olan tərəfə sülh təklifi ilə çıxış etmək marağında olmayıb, amma Azərbaycan tərəfi qalib ola-ola Ermənistana sülh təklifi edirsə, deməli, məqsəd dinc və yanaşı yaşamaqdır.

44 günlük müharibə Ermənistanın rüsvayçı məğlubiyyəti ilə başa çatsa da, baş nazir Paşinyan Qarabağın Azərbaycan ərazisi olduğunu sözdə etiraf etdiyi halda, əməldə bunu göstərmədi. Azərbaycan öz ərazisini, Qarabağı cinayətkar dəstədən, eləcə də erməni silahlı birləşmələrinin qalıqlarından təmizləsə də rəsmi İrəvan bundan nəticə çıxarmadı və hələ də hansısa ölkənin qanadı altına sığınaraq, ancaq yardımlar haqqında, dəstək barədə düşünür. İşğalçı ölkə hakimiyyəti başa düşə bilmir ki, artıq Azərbaycan ərazisində Ermənistanın himayə etdiyi boz zonalar yoxdur və sülh müqaviləsinə gedən yol tam açıqdır. Deməli, Ermənistanın sülh danışıqlarına başlaması üçün hansısa hegemon dövlətin qarışmasına ehtiyac da qalmır və belə bir təklifi artıq rəsmi Bakı İrəvana göndərib. Bu təklif layiqincə qiymətləndiriləcəyi təqdirdə sülh danışıqlarının yaxın zamanda baş tutması tam realdır və bununla da Ermənistan öz yolunu doğru istiqamətə yönəldə bilər. Yəni, vasitəçi olmadan, iki dövlətin öz aralarında razılığa gələrək sülh müqaviləsini imzalaması daha doğru addımdır və bunu məhz Azərbaycan tərəfi Ermənistana təklif edib. Ermənilər bu təklifi layiqincə qiymətləndirə biləcəyi təqdirdə, bütün məsələlər öz həllini tapmış olacağına da zərrə qədər şübhə yeri qalmır.

Sözsüz ki, ölkəmiz tərəfindən ən optimal varintın təklif olunmasını, bunun da nəticədə sülhə gətirib çıxaracağını, Cənubi Qafqazda vəziyyətin daha da yaxşılaşacağını, qonşu ölkələrin dinc və yanaşı yaşayacağını dərk edən bəzi qüvvələrin atılıb ortaya düşməsi səbəbsiz deyil. Əvvəla, onlar münaqişənin hələ bundan sonra da davam etməsini istəyən qüvvələrdir və onlar üçün sülh danışıqları, qonşu ölkələrin mehriban qonşuluq şəraitində yaşaması qətiyyən maraqlı ola bilməz. Digər tərəfdən də həmin qüvvələr sülh prosesində özləri vasitəçi olmağa çalışırlar ki, bundan da divident əldə etsinlər və hansısa "minnət qoymaqla" xüsusi imtiyaz iddiasında olsunlar. Elə buna görə də məhz ABŞ və Fransa kimi ölkələr ortaya düşüblər və dərhal başa düşülür ki, niyyətləri də tamamilə başqadır. Məsələ burasındadır ki, ara qarışdırmaq istəyənlər nəinki keçmişdə olmayanlara görə, hətta gələcəkdə guya olacaq hadisələrə görə də Azərbaycanı ittiham etməyi özlərinə rəva bilirlər. Daha dəqiq desək, nə vaxtsa Azərbaycanın məhz Ermənistana hücum edəcəyi barədə fikir səsləndirənlərin olmamış hadisələrə görə ölkəmizə qarşı indidən ittihamlar irəli sürməsi, təkcə təəccüb deyil, həm də gülüş doğurur və təsdiq edir ki, bir çoxları özlərini gülünc vəziyyətə qoymaqla da olsa, Cənubi Qafqaza soxulmağa can atırlar. Məhz bu həqiqətləri Ermənistan tərəfi başa düşməlidir və ölkəmizin vasitəçisiz sülh təklifinə ağız büzməməli, əksinə, bu təklifi düzgün qiymətləndirməlidirlər.

Rəsmi İravan başa düşməlidir ki, Bakı danışıqlar prosesi üçün ən yaxşı, ən münasib variantı təklif edir. Təklif olunan, danışıqların məhz regionda, öz niyyətləri üçün çalışan kənar qüvvələrin iştirakı olmadan vasitəçisiz aparılması variantıdır. Cənubi Qafqazda, həm Azərbaycana, həm də Ermənistana, yəni, hər iki ölkəyə eyni yaxınlıqda olan Gürcüstanda, Tbilisidə danışıqların vasitəçisiz olaraq keçirilməsi təklifi ilə rəsmi Bakı çıxış edir və bunu ən doğru yol sayır. Lakin Qərb öz təsir variantları ilə buna mane olmağa çalışır. Məsələn, maddi yardımlar, silah təklif olunur, vizasız rejim tətbiqi ilə bağlı yağlı vədlərlə İrəvanı ələ alan Qərb öz danışıqlar formatını sırımaq niyyətindədir. Hətta buna ciddi cəhdlə çalışdığı da göz önündədir. Xüsusən də Qərbin layihəsi kimi irəli atılan Nikol Paşinyan, məhz hakimiyyətə gəlişinə görə özünü borclu hesab edir deyə, həmin ciddi cəhdə qarşı gələ bilmir. Amma iradə nümayiş etdirməyin, eləcə də kimlərinsə aləti olmaqdan imtina etməyin tam zamanıdır. Əks halda, ermənilər hələ bundan sonra nələri itirəcəklərini təsəvvürlərinə belə gətirə bilməzlər.

Uzun illər ərzində Qarabağ ərazilərini ələ keçirmək üçün ermənilərin nə qədər çalışdıqları, hər dona girərək, hər əmələ əl ataraq, Azərbaycan torpaqlarını zəbt etmələri və 30 il müddətində işğal altında saxlamaları onu göstərir ki, həmin ərazilərin ordumuz tərəfindən işğaldan azad olunması, yəni, əllərindən çıxması haylar üçün bir sarsıntı deməkdir. Daha dəqiq desək, ələ keçirdikləri Azərbaycanın Qarabağ torpaqlarını əldən vermək ermənilər üçün çox ağır gəlir. Bunu hələ də həzm edə bilmirlər, çünki onilliklər boyu çalışdıqları, gördükləri çirkin işlər və hətta ümudləri belə puça çıxıb, üstəlik də ərazilər əllərindən çıxıb. Yəni, haylar artıq Qarabağ torpaqlarından əllərinin üzüldüyünü qəbul etməsələr belə başa düşürlər. Amma görəsən başa düşürlərmi ki, onlar bu gedişlə Ermənistanı da itirməkdədirlər? Söhbət ondan gedir ki, ermənilər kimlərinsə əlində alət olmaqla, müstəqilliklərini, suverenliklərini, nəticə də dövlətçiliklərini itirirlər. Hələ də hansısa qüvvələrin, yaxud hegemon dövlətlərin qanadı altına sığınmağa çalışan və özlərinə ağa axtaran haylar bu vaxta qədər öz suveren dövlətçiliklərini formalaşdıra bilməyiblər və bu gedişlə heç zaman da formalaşdıra bilməyəcəklər, yəni onu itirəcəklər. Hər halda, bu vəziyyət onların özləri düşünməli və mövcud vəziyyətlə əlaqədar olaraq doğru qərar qəbul edərək, doğru yolu seçməlidirlər və bunun üçün Azərbaycan tərəfindən də çox gözəl bir şans verilib.

Hansısa ölkənin çətin durumunda qətiyyən məsuliyyət hissi belə keçirməyən Qərb üçün Ermənistan da göydən düşmə bir ölkə deyil. Ukraynanın halına, vəziyyətinə düşdükdə Ermənistanın ümumiyyətlə vəziyyəti Qərbi maraqlandırmayacaq. Heç indiki durumu da maraqlandırmır, əks halda, Qərb sülh danışıqlarının çoxdan baş tutması üçün çalışardı, özünün vasitəçiliyi üçün yox. İndi İrəvanın hansı durumda olduğunu nəzərə belə almadan Cənubi Qafqazda özünə yer eləmək istəyən Qərbin iç üzünü haylar görməlidirlər və bilməlidirlər ki, onlara bu çətin məqamda yardım əlini uzadıb, vasitəçisiz görüşməyi və gələcək münasibətlərin taleyini özləri təyin etməyi təklif edən Azərbaycandır. Təbii ki, bu təklifi qəbul etməmək nəinki yanlışlıq, hətta çox böyük axmaqlıq olardı. Özü də söhbət görüşün təkcə Tbilisidə keçirilməsindən getmir və həmin görüş sərhəd bölgələrində də keçirilə bilər. Amma əsas odur ki, həmin görüş vasitəçisiz keçirilsin və kiminsə iki ölkənin yerinə razılığa gəlməsi gözlənilməsin. Bir sözlə, vasitəçisiz sülh danışıqları ən doğru olanıdır.

***İnam Hacıyev***

# Yolumuz Laçınadır




***Növbəti köç karvanı Bakının Qaradağ rayonundakı "Qobu park 3" yaşayış kompleksindən yola salındı. Bu karvan əzəli sakinləri yurd-yuvasına qovuşdurur. Bu mərhələdə Laçın şəhərinə daha 21 ailə - 81 nəfər köçürüldü. Köçürülən ailələr Laçın şəhərində vaxtilə yaşadıqları, işğala son qoyulduqdan sonra dövlətimizin başçısının göstərişi əsasında bərpa edilən və ya yenidən tikilən evlərdə məskunlaşırlar. Bununla da Laçın şəhərinə köçürülənlərin sayı 1326 (346 ailə) nəfərə çatmış oldu. İşıqlı, təhlükəsiz yol onları mənzil başına çatdırır.***

TƏHLİL

Bəli, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq, yenidən qurulan Laçın şəhərinə keçmiş məcburi köçkünlərin qayıdışı davam edir.

Beynəlxalq və regional əməkdaşlığa sanballı töhfələr verən Azərbaycan iqtisadi gücünü, qüdrətini daha da artırmaqla qlobal layihələri uğurla icra edir. İnkişaf strategiyası nəticəsində Azərbaycan dünya miqyasında sabit və dayanıqlı iqtisadiyyatı, eləcə də böyük maliyyə resursları olan, qlobal enerji təhlükəsizliyinin təminatında strateji rol oynayan dövlətə çevrilib. Dinamik inkişafı və beynəlxalq aləmdə qazandığı nüfuzu ilə seçilən Azərbaycan 2022-2030-cu illəri əhatə edən strateji inkişaf mərhələsinə daxil olub.

44 günlük Vətən müharibəsində qısa bir zamanda uğurlu əməliyyatlar nəticəsində düşmən tapdağı altında olan torpaqlarımızın işğaldan azad olunması ilə Ermənistanın 30 ilə yaxın davam edən işğalçılıq siyasətinə son qoyuldu. Ermənistan tərəfindən işğal altında saxlanılmış bu ərazilərdə Azərbaycanın şəhərləri və digər yaşayış məntəqələri, o cümlədən infrastruktur obyektləri tamamilə dağıdılıb, milli-mədəni irsimiz məhv edilib, təbii sərvətlərimiz talan olunub. Bu gün işğaldan azad olunan ərazilərimizdə abadlıq-quruculuq işlərinə başlanılıb. Azərbaycanın iqtisadi gücü işğaldan azad olunan ərazilərdə yeni həyatın başlanmasına imkan verir. Azərbaycan yalnız özünün maliyyə resurslarına arxalanaraq sıfırdan yeni şəhər və kəndlər salır. Təbii ki, Böyük Qələbənin nəticəsində yaradılmış yeni reallıq Qarabağın bərpası və inkişafını nəzərdə tutan Böyük Qayıdış strategiyasının aktuallığını təmin edir.

Dayanıqlı sülhə, tərəqqiyə əsaslanan Azərbaycan Vətən müharibəsindən ötən müddət ərzində işğaldan azad olunmuş ərazilərin minalardan və partlamamış hərbi sursatdan təmizlənməsi, müasir yaşayış, istehsal və xidmət infrastrukturunun qurulması istiqamətində kifayət qədər layihələri həyata keçirib və bu davamlıdır. Eləcə də nəqliyyat-kommunikasiya xətlərinin bərpası, xüsusilə Zəngəzur dəhlizinin açılması istiqamətində mühüm işlər görülüb. Qısa bir zamanda Böyük Qayıdışın karvanları ardıcıl olaraq mənzillərə yol almağa başladı Demək olar ki, hər gün insanlarımız bu sevinci yaşayırlar. Ağalıya, Füzuliyə, Laçına gedən köçlər əzəli sakinləri arzularına qovuşdurur. İllərlə qubar bağlamış ürəklərə sevinc gəlir. 30 ilə yaxın bir müddətdə hər gün o yollara çıxmaq, əzəli torpaqda əbədi yaşamaq istəyi baş qaldırmış olsa da bu arzu və xəyal kimi qalırdı. İllər ötdü bu arzunu reallığa çevirən güclü Lider, Sərkərdə, Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə torpaqlarımıza sahib olduq. Birinci pilot layihə olan "Ağıllı kənd" layihəsi Zəngilanda icra edildi, Beynəlxalq hava limanlarının - Füzulidə Beynəlxalq hava limanının, Zəngilan Beynəlxalq hava limanının istifadəyə verilməsi Azərbaycanın nəhəng quruculuq işlərinin həyata keçirməsindən xəbər verir. İşğaldan azad olunan ərazilərdə böyük abadlıq-quruculuq işləri davam etdirilir. Təhlükəsiz yaşayışı və dövlət idarəetməsini təşkil etmək, şəhər, qəsəbə və kənd yaşayış məntəqələrinin tikintisini və dayanıqlı infrastrukturla təminatını həyata keçirmək, müasir standartlara uyğun xidmətlərin yaradılmasını təmin etmək və s. prioritet məsələ olaraq qarşıya qoyulub və əhalinin doğma torpaqlarına geri qayıdışının yüksək səviyyədə təminatı istiqamətində davamlı layihələr həyata keçirilir. Qarşıya qoyulan Strateji prioritetlər sırasında "universallıq", "inteqrasiyalı yanaşma" və "heç kimin geridə qalmaması" kimi prinsiplərə əsaslanan Dayanıqlı İnkişaf Məqsədlərinə və onların müvafiq hədəflərinə uyğunlaşdırılması da yer alıb.





Birinci pilot layihə olan "Ağıllı kənd" layihəsi Zəngilanda icra edilsə də indi başqa ərazilərimiz də qaynar həyat başlayıb. Böyük Qayıdışımız əzəli Qarabağ torpağında insanların rahat, firavan yaşamasına istiqamətlənib. Artıq işğaldan azad olunan ərazilərimizin əzəli sakinləri öz dədə-baba yurdlarına qayıdırlar. Füzulidə məcburi köçkünlərin rahat və təhlükəsiz yaşayışının təmin edilməsi üçün zəruri infrastruktur yaradılıb. Məcburi köçkün ailələrin nümayəndələri püşkatma vasitəsilə onlara verilən evlərin dəqiq ünvanını müəyyənləşdirirlər.

30 ildən sonra yenidən doğma kəndinə qədəm qoyan ailələr həsrətini çəkdikləri kəndin gözəl mənzərəsi ilə tanış olurlar.

Vətən müharibəsində qazandığımız Zəfərdən üç il zaman ötməsinə baxmayaraq, işğaldan azad olunan ərazilərimizdə abadlıq və quruculuq işləri uğurla və davamlı şəkildə həyata keçirilir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# "Türkiyə-Azərbaycan əlaqələri qardaşlıq bağları çərçivəsində inkişaf edir"

***"Azərbaycan Türkiyə əlaqələri ikinci Qarabağ müharibəsindən sonra artıq rəsmi şəkildə müttəfiqlik əlaqələrinə malikdir". Bunu SİA-ya açıqlamasında politoloq Məhəmməd Əsədullazadə deyib.***

Onun sözlərinə görə, Türkiyə Azərbaycan bir-birinlərini beynəlxalq müstəvidə dəstəkləyir: "Türkiyə və Azərbaycan Cənubi Qafqazda və Mərkəzi Asiyada yeni yaranan siyasi nizamda birgə hərəkət edirlər. Yeni koordinasiya ilə fəaliyyət göstərirlər. Türk dövlətləri birliyi çərçivəsində bu əlaqələr daha sıxdır. Məhz Azərbaycan və Türkiyə türk dövlətləri təşkilatının birliyinin formalaşmasına gətirib çıxaracaq birgə siyasi prosesə imza atdılar. Bu gün Türkiyə Prezidenti cənab Rəcəb Tayyib Ərdoğan və Azərbaycan Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi siyasət iki xalqın milli maraqlarına, qardaşlıq tellərinin gücləndirilməsinə, iki dövlətin gələcəkdə də daha sıx müttəfiqlik əlaqələrinin qorunub saxlanılmasına hesablanmış siyasət ortaya qoyurlar. Məhz Şusa bəyannaməsinin imzalanması, onun təsdiq olunması iki qardaş, xalq arasında məhz hərbi müstəvidə əlaqələrin yeni mərhələyə çıxarılmasıdır. Ümumiyyətlə, Türkiyə-Azərbaycan əlaqələri təkcə sənədlər üzərində deyil, qardaşlıq bağları çərçivəsində də inkişaf edir. Biz bunu Türkiyənin Azərbaycana siyasi, hərbi nöqteyi-nəzərdən dəstəyində hiss edirik. Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan həmişə Azərbaycanı müdafiə edir və hər zaman yanında olub. O cümlədən, Azərbaycan Prezidenti cənab İlham Əliyev də daima Türkiyənin maraqlarını qorumaq istiqamətində addımlar atır. Bir sözlə, Azərbaycan və Türkiyə həm İslam Əməkdaşlıq Təşkilatında, BMT, Türk Dövlətləri Təşkilatında, İqtisadi Əməkdaşlıq




Təşkilatı çərçivəsində də əlaqələri koordinasiyalı şəkildə inkişaf etdirirlər. İki dövlət mütəmadi olaraq hərbi təlimlər keçirir və bu hərbi təlimlər regionda sülhün və təhlükəsizliyi təmin edir".

***Gülyana***

# Müasir dövrün reallığı: qloballaşan turizm

***Hazırda dünya ölkələri arasında iqtisadi əlaqələrin sürətlə inkişaf etdiyi bir dövrdə turizm xarici iqtisadi fəaliyyətin ən dinamik inkişaf edən sahələrindən birinə çevrilib. Müstəqilliyini bərpa etdikdən sonra yeni ictimai-iqtisadi inkişaf yoluna qədəm qoyan, açıq bazar iqtisadiyyatı sisteminin tələbləri əsasında inkişaf edən Azərbaycan beynəlxalq aləmə inteqrasiya prosesləri çərçivəsində dünya dövlətləri ilə iqtisadi əlaqələrini genişləndirib və bu əlaqələrin bir qolu olan turizm sahəsində görülən işlər təqdirəlayiqdir.***

Təbii ki, müasir dünyada turizm iqtisadiyyatın əsas inkişaf və gəlir istiqamətlərindən biri kimi dəyərləndirilir. Ölkəmizdə bütün sahələrdə olduğu kimi, turizminin inkişafına da dövlət tərəfindən ayrılan diqqət və qayğı bu sahəni iqtisadiyyatının aparıcı sahəsinə çevirməkdədir. Görülən işlər ölkənin müxtəlif bölgələrində turizmin fərqli növlərinin, sağlamlıq, qış, mədəni, işgüzar, ekoturizm və kənd turizmi kimi növlərinin inkişafına ciddi təsir göstərib.



Ölkə başçısının məqsədyönlü və balanslı xarici siyasəti, uğurlu daxili siyasəti nəticəsində Azərbaycan bu gün dünya üzrə ən təhlükəsiz və sabit ölkələr sırasındadır. Bu amil isə müasir dünyada turistlərin səyahət seçimi etməsində ən əsas göstəricidir. Onu da xatırladaq ki, Odlar diyarı kimi səciyyələndirilən ölkəmizdə bu sahənin tərəqqisi üçün geniş potensial vardır. Dünyada olan 11 iqlim qurşağından 9-u ölkəmizdədir. Ölkəmizin tarixi mədəniyyət abidələri var. Azərbaycanın ən məşhur turistik əhəmiyyətli Şəki Xan Sarayı, Nuhun qəbri, Naxçıvan diyarı, Qubanın Xınalıq kəndi, Qəbələ üzüm bağları, Talış dağları və s. turistlər üçün çox maraqlı məkanlardır.

Sözügedən sahə üzrə bu günə qədər həyata keçirilən dövlət proqramları və digər normativ-hüquqi sənədlər ölkənin turizm sahəsində əsas inkişaf prioritetləri, perspektivləri və problemlərin həlli istiqamətində atılan mühüm addımlar olmuşdur. Görülən işlər ölkəmizə marağı artırmış və çoxsaylı insanların turist olaraq Azərbaycanı istirahət üçün seçməsinə səbəb olub. Azərbaycanda turizmin inkişafına təkan verən amillərdən biri də ölkədə keçirilən beynəlxalq tədbirlər, konfranslar, simpozimlar və müxtəlif görüşlərdir. Belə tədbirlərin ölkəmizdə keçirilməsi Azərbaycanın tanıdılması istiqamətində uğurlar sırasındadır.

## TURİZM BAZARI AÇIQ VƏ RƏQABƏTƏ DAVAMLIDIR

Turizmin qloballaşması müasir dövrün reallığıdır. Turizmin təşkilinə üstünlük verən ölkələr dünyanı tam şəkildə qəbul edir, onun hər yerində sülhün və əmin-amanlığın qorunmasına çalışırlar. Çünki müharibələr, münaqişələr və terror hadisələri turizmin inkişafına mane olan ən başlıca amillərdir. Bu gün ölkəmizdəki sabitlik, əmin-amanlıq turizmin də inkişafında önəmli faktorlardan biridir. Coğrafi mövqeyinə görə əlverişli bir ərazidə yerləşən Azərbaycanda turizm ən perspektivli və yüksək potensiallı sahə hesab edilir. Dövlətin turizmə yaxından diqqəti və qayğısı bu sahənin gələcək inkişafına zəmin yaradır. Dövlət büdcəsinin 2025-2030-cu illərə kimi turizm sektorunun inkişafı hesabına genişləndirilməsi nəzərdə tutulur. Azərbaycanda ötən 20 il ərzində turizm sektorunun inkişafına yönəlmiş dövlət proqramları, bu sahəyə yatırılan investisiyalar, xidmət sektorunun inkişafı və regionlarda yolnəqliyyat infrastrukturunun yenidən qurulması nəticəsində turizmin inkişafına prespektivlər açıb. Görülən tədbirlər şaxəli və fərqlidir. Bu gün Azərbaycanda turizm bazarı açıq və rəqabətə davamlıdır. Bu sahənin inkişafı və turizm sektorunun ölkə iqtisadiyyatının aparıcı sahələrindən birinə çevrilməsi Azərbaycanda ən mühüm vəzifə olaraq qarşıda durur. Müxtəlif sahələrlə yanaşı, ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi də hazırlanıb.

44 günlük Vətən müharibəsində işğaldan azad olunmuş ərazilərimizdə qısa müddətdə müasir infrastruktur qurulub. Qarabağda mövcud şərait – flora və faunanın rəngarəngliyi, iqlim, istirahər üçün zəruri hesab olunan amillər daha zəngin və cəlbedicidir. Bu amillər Azərbaycanın iqtisadi potensialının daha da yüksəlməsinə müsbət təsirini göstərəcəkdir. Zəngin Qarabağ torpağı istənilən əcnəbi turistin marağından kənar qala bilməz. Məlumdur ki, tarixi kökü olmayan və ərazinin tarixi ilə heç bir bağlılığı olmayan ermənilər 30 ilə yaxın işğal dövründə qəddarcasına Qarabağın və ətraf rayonların təbii landşaftı, tarixi-memarlıq abidələri, tranzit-kommunikasiya şəbəkəsi dağıdıb, bir sözlə regionun turizm infrastrukturunu tamamilə məhv ediblər. Talançılıq missiyasını reallaşdıran Ermənistan "sivilizasiyalı" dövlət kimi dünya ölkələri tərəfindən qəbul olunmuş konvesiya, qərar, bəyanat və qətnamələrə əməl etməyib. İşğal dövründə adı "Qırmızı Kitab"a salınmış neçə-neçə flora faunamıza aid olan qiymətli nümunələrə zərbə vurulub. Adı "Qırmızı Kitab"a salınmış Kəlbəcər rayonunda yerləşən ayıfındığı növündən ibarət 968 hektar meşə hazırda kütləvi qırılıb və mebel istehsalı üçün Ermənistana göndərilib.

## TURİSTLƏRİN ƏN ÇOX MARAQ GÖSTƏRƏCƏYİ MƏRKƏZ - QARABAĞ

Qarabağ torpağının işğal dövründə təbii sərvətlərinin ermənilər tərəfindən özbaşına istismar olunması, ekoloji durumuna ağır zərbə vurulması faktları Ermənistanın həyata keçirdiyi sivil vəhşilik siyasətidir. Belə ki, Füzuli rayonunda işğal olunmuş ərazilərdə təbiətin ermənilər tərəfindən güclü ekoloji dağıntıya məruz qalması hər kəsə bəllidir. Rayon ərazisinə yaxın olan Azıx və Tağlar mağaraları dünya tarixinin qədim abidəsi kimi tarixiləşib. Rayonun ən böyük meşələridən olan Ərgünəş meşəsində ermənilər yanğın törətmişdilər. Yanğın nəticəsində ərazidə olan qiymətli ağac və kollar məhv olmuş, təbiətə xeyli ziyan vurulmuşdur.

İstirahət üçün böyük məkan olan və ekoloji cəhətdən əhəmiyyət daşıyan "Daş-başı" və "Leşkar" meşələrində ermənilərin yanğın törətmələri də hər kəsin xatirindədir. "Leşkar" meşə sahəsində isə yararlı ağaclar tam qırılıb. Buna Azərbaycan iqtisadi gücü, potensialı var. Xatırladaq ki, Laçın dövlət yasaqlığında cüyür, qaya keçisi, çöl donuzu, ayı və s. quşlardan isə turac, kəklik və s. məskunlaşmışdır. Burada 1989-cu ildə aparılan yoxlanmada dağ-keçisi (bezoar keçisi) 96 baş, qaban 360 baş, cüyür 320 baş, ayı 110 baş, canavar, porzuq, dələ və s. heyvanlar, quşlardan qırqovul 200, kəklik 1500 məskunlaşmışdır. Qubadlı dövlət yasaqlığında isə işğaldan əvvəl müəyyən olmuşdur ki, burada 101 baş çöl donuzu, 21 baş qonur ayı, 35 baş çüyür, 420 baş dovşan, 25 baş canavar, 310 baş çaqqal, 75 baş porsuq vardır. Quşlardan ən çox kəklik yayılıb. Qırqovul, turac, bildirçin, göyərçin bu yerlərin daim sakinlərindəndirlər. Belə bir səfalı yerlərə malik, turizmin inkişafına böyük təkan olacaq yerlərimizin ermənilərin əlində 30 ilə yaxın qalması Azərbaycanın iqtisadi inkişafına, onun turizm imkanlarının genişlənməsinə zərbə vurmuşdur. İşğal dövründə ermənilər bu xəzinədən vəhşicəsinə istifadə etmişdirlər. Cənnətməkan hesab olunan ərazilərimizi xarabalığa çevirən ermənlər yaxın bir zamanda buranın əvvəlkinən də gözəl bir məkan olacağının şahidi olacaqlar. Öz milli xüsusiyyət və tələbatlar çərçivəsində Azərbaycan bu məkanlarda ab-hava yaradaraq Qarabağı turistlərin ən çox maraq göstərdiyi bir mərkəzə çevirir.

Bu gün artıq işğaldan azad olunan ərazilərimizdə abadlıq-quruculuq işləri geniş vüsət alıb. Kəlbəcərə dünya şöhrəti qazandırmış Yuxarı İstisu, Aşağı İstisu, Keşdək, Qarasu, Tutxun, Mozçay, Qoturlusu kimi çox böyük müalicəbalneoloji təsirə malik mineral su yataqları da 27 il işğalda qalmışdı. Kəlbəcərin məşhur olan "İstisu" sanatoriyası da işğal altında idi. İstisu kəndinin məşhur mineral suyu olan "İstisu" bulağı ətrafında 1928-ci ildə eyni adlı sanatoriyası salınıb. Kəlbəcər rayonu İstisu mineral ehtiyatı və "İstisu" sanatoriyası ilə bütün dünyada tanınıb. Mənbələrə görə, istisu mineral bulaqları 1138-ci ildə güclü zəlzələ nəticəsində meydana çıxıb. Öz kimyəvi tərkibinə və bir çox digər xüsusiyyətlərinə görə İstisuyun dünyada analoqu yoxdur. Burada suyun temperaturu müsbət 58,8 dərəcədir.

Onu da bildirək ki, ermənilər Azərbaycan işğal altında olan bütün əraziləri kimi, Kəlbəcəri də dağıtmış, onun tarixi abidələrini darmadağın etmişdir. Kəlbəcər rayonu böyük tarixi keçmişi, zəngin mədəniyyəti, qədim tarixi abidələri ilə seçilir. Dağıdılmış mədəni abidələr Alban məbədi, Alban kilsəsi, Lök qalası, Uluxan qalası, Alban kilsəsi, Qalaboynu qalası, Comərd qalası, Kəlbəcər şəhərində məscid, Başlıbel kəndində məscid, Otaqlı kəndində məscid, Kəlbəcər Tarixdiyarşünaslıq muzeyi, Aşıq Şəmşir adına mədəniyyət evi, Söyüdlü yaylağında Seyid Əsədullanın ziyarətgahı və digər abidələr 27 illik işğaldan azad oldu. Əlbəttə ki, həyata keçirilən layihələr, görülən işlər bir daha deməyə imkan verir ki, işğaldan azad olunan ərazilərimiz müasir standartlara uyğun olaraq qurulacaq.

## ORTA ƏSR ŞUŞASINA QAYIDIŞ

Bildiyimiz kimi, işğaldan azad edilən ərazilərdə Azərbaycan dövləti tərəfindən həyata keçirilən bərpa və quruculuq işlərinə Heydər Əliyev Fondu da öz töhfəsini verməkdədir. Qədim Qarabağ torpağında Fond tərəfindən dini, tarixi-mədəni abidələrin, məscidlərin bərpası üzrə layihələrin icrasına start verilib. Heydər Əliyev Fondunun Qarabağdakı layihələri Ağdam Cümə məscidi, Zəngilan şəhər məscidi, Şuşada Aşağı Gövhər Ağa məscidi, Yuxarı Gövhər Ağa məscidi, Saatlı məscidi, Mamayı məscidi və bulağı, Molla Pənah Vaqifin muzey-məqbərə kompleksi, Mehmandarovların malikanə kompleksi, Şuşada Yaradıcılıq Mərkəzi, Üzeyir Hacıbəylinin ev-muzeyi və digər tarixi-mədəni abidələrin bərpa və yenidən qurulmasını, Şuşada yeni məscidin inşasını əhatə edir. Tarixi Zəfərimizin növbəti ildönümü ərəfəsində Şuşada bərpası başa çatan və təqdim edilən layihələrdən biri də "Yasəmən" otelidir. XIX əsrin ortalarında Qarabağ memarlıq məktəbinə xas tərzdə inşa edilmiş, Şuşa şəhərinin Köçərli küçəsində yerləşən üç yaşayış binası işğal zamanı dağıdılaraq istifadəyə yararsız vəziyyətə salınıb. Heydər Əliyev Fondu ərazidə layihələndirmə işləri apararaq, 2022-ci ilin may ayından etibarən həmin yaşayış binalarının təmir-bərpa işlərinə başlayıb. Bərpa zamanı binalarda təməlbərkitmə işləri görülüb, divarlarda daxili bərkitmə işləri aparılıb. Mərmi düşməsi nəticəsində binanın dağılmış hissələri yenidən tikilib. Sonradan inşa olunmuş əlavə tikililər isə sökülüb.

Fond tərəfindən bərpa edilən binalar hazırda otel kimi istifadəyə verilib. Autentik üslubda bərpa edilən "Yasəmən" otelinin eksteryer və interyeri buraya gələnləri orta əsr Şuşasına qaytarır. Qonaqlar otelin həyətində dövrünün üslubuna uyğun salınan bağçada və terrasda dincələ, şəhərin mənzərəsini seyr edə bilərlər. Terrasdan Mehmandarovların malikanə kompleksinə və ümumi şəhərə gözəl mənzərə açılır. Otelin interyeri, otaqları xüsusi dizayn edilib. Buradakı hər bir element, əşya məhz bu dizayna uyğun seçilib. Bu da qonaqlarda nostalji hisslər yaradır.

Şuşa işğaldan azad edildikdən sonra şəhərdə qısa müddətdə "Qarabağ", "Xarıbülbül" otelləri, Şuşa Otel-Konqres Mərkəzi Kompleksinin açılışı olub və artıq "Yasəmən" oteli də şəhərin tarixi mənzərəsinə daha bir gözəllik qatmaqla qonaqların istifadəsinə verilib. Ölkəmizin hər bir bölgəsinin belə turizm imkanları vardır. Ölkəmizin turizm siyasəti kompleks xarakter daşıyır. Azərbaycanda turizmin inkişaf etdirilməsi üçün ölkənin zəngin coğrafi landşafta, flora və faunaya malikliyi əsas şərtlərdəndir. Zəngin mədəni, tarixi irsə və əlverişli təbii şəraitə malik Azərbaycan turizm sahəsində böyük inkişaf perspektivlərinə malikdir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Gənc partiya fəalları Heydər Əliyev Mərkəzini ziyarət ediblər



"Heydər Əliyev İli" ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiq edilən Tədbirlər Planı çərçivəsində Ulu Öndərin zəngin dövlətçilik irsinin, əbədiyaşar ideyalarının öyrənilməsi və yeni nəslə aşılanması, xalqımız və dövlətimiz qarşısında misilsiz xidmətlərinin geniş ictimaiyyətə çatdırılması məqsədilə ardıcıl tədbirlər həyata keçirilir.

2023-cü il noyabrın 23-də YAP Binəqədi rayon təşkilatı tərəfindən gənc partiya fəallarının iştirakı ilə Abşeron rayon Heydər Əliyev Mərkəzinə ekskursiya təşkil olunub. Əvvəlcə Ulu Öndərin abidəsi ziyarət olunub, abidənin önünə gül dəstələri düzülüb.

Mərkəzdə gənclərə müstəqil Azərbaycan dövlətinin memarı, Ümummilli Lider Heydər Əliyevin zəngin həyat yolu və müstəsna fəaliyyəti haqqında geniş məlumat verilib. Gənclər eksponat, fotoşəkil və kitablarla tanış olublar.

Sonda xatirə fotosu çəkdirilib.

# Milli dövlətçiliyimizin xilaskarı

## Tovuz rayonunda "Heydər Əliyev İli" çərçivəsində tədbir keçirilib







"Heydər Əliyev İli" ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiq edilən Tədbirlər Planı çərçivəsində YAP Tovuz rayon təşkilatı noyabrın 23-də tədbir keçirib. Əvvəlcə Ulu Öndər Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzülüb, dahi şəxsiyyətin xatirəsi ehtiramla yad olunub.

Sonra rayon Şəhidlər xiyabanı ziyarət edilib, Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda canından keçmiş qəhrəman Vətən övladlarının əziz xatirələri ehtiramla anılıb. Tədbirdə Dövlət Himni səsləndirilib. Ulu Öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Daha sonra Ulu Öndərin həyat və fəaliyyətindən bəhs edən videoçarx nümayiş olunub.

Tədbiri giriş sözü ilə açan YAP Tovuz rayon təşkilatının sədri Nihad Pənahov Ümummilli Liderin xalqımız və dövlətimiz qarşısında xidmətlərindən danışıb. Bildirib ki, Ulu Öndər Heydər Əliyev böyük qətiyyəti, siyasi iradəsi ilə xilaskarlıq missiyasını yerinə yetirdi, yeni, müasir Azərbaycanı qurdu. Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi, onun əbədi, dönməz xarakter alması, ölkəmizin dinamik iqtisadi inkişaf yolu ilə inamla irəliləməsi, beynəlxalq nüfuzunun sürətlə artması Heydər Əliyevin səmərəli fəaliyyəti sayəsində mümkün olub.

YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Pərvin Kərimzadə qeyd edib ki, Ulu Öndərin həm SSRİ dönəmində, həm də müstəqillik illərində ölkəmizə rəhbərliyi dövründə xalqın rifahının daha da yaxşılaşdırılması, respublikamızın tərəqqisinin təmin olunması və digər istiqamətlərdə tarixi əhəmiyyətli işlər görülüb. Vurğulayıb ki, bu gün müasir müstəqil Azərbaycan Ümummilli Liderin ideyaları əsasında inkişaf edir. Ulu Öndərin əsasını qoyduğu siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

YAP Təftiş Komissiyasının üzvü, Milli Məclisin deputatı Aydın Hüseynov deyib ki, Ümummilli Lider Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoyub. Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Heydər Əliyevin ideyalarının təntənəsidir.

Tovuz Rayon İcra Hakimiyyətinin başçısı Məmməd Məmmədov söyləyib ki, böyük siyasi iradəyə, sarsılmaz əqidəyə malik olan Heydər Əliyevin tükənməz dövlət idarəçiliyi, istedadı hər bir azərbaycanlı üçün məktəbdir. Ulu Öndər Heydər Əliyevin zəngin dövlətçilik ideyaları ilə silahlanmış müstəqil Azərbaycan hazırda Prezident İlham Əliyevin rəhbərliyi altında daha xoşbəxt sabahlara doğru uğurla addımlamaqdadır.

Partiya veteranı Arif Əsgərov və Qazax Regional Təhsil İdarəsinin Tovuz rayon üzrə Təhsil Sektorunun metodisti Fikrət Tağıyev çıxış edərək Ulu Öndər Heydər Əliyevin fədakar əməyi, qətiyyəti, möhkəm siyasi iradəsi sayəsində müasir Azərbaycan dövlətçiliyinin siyasi, iqtisadi əsaslarının yaradılmasından, respublikamızın dünya məkanında öz layiqli yerini tutmasından, ölkəmizin bütün sahələrində baş vermiş müsbət dəyişikliklərdən söhbət açıblar.

Sonda rayonun ictimai-siyasi həyatında fəal iştirak edən partiya üzvlərinə fəxri fərman, YAP sıralarına yeni qoşulanlara üzvlük vəsiqələri təqdim edilib. Tədbirə Yeni Azərbaycan Partiyasının Himninin səsləndirilməsi ilə yekun vurulub.

# Mingəçevir şəhərində "Mənəviyyatımızı və gələcəyimizi narkotiklərə qurban verməyək!" mövzusunda tədbir keçirilib







***Yeni Azərbaycan Partiyası (YAP) Mərkəzi Aparatının, "Azərbaycan Televiziyası və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin və Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupunun 2023-cü il üçün birgə Tədbirlər Planına uyğun olaraq noyabrın 23-də Mingəçevir şəhərində "Mənəviyyatımızı və gələcəyimizi narkotiklərə qurban verməyək!" mövzusunda tədbir keçirilib.***

Mingəçevir şəhər Heydər Əliyev Mərkəzində baş tutan tədbirdə Mingəçevir şəhəri, Ağdaş, Göyçay, Kürdəmir, Ucar, Yevlax və Zərdab rayonlarını təmsil edən gənclər iştirak ediblər. Əvvəlcə Ulu Öndər Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyulub, dahi şəxsiyyətin xatirəsi ehtiramla yad olunub. Tədbirdə Dövlət Himni səsləndirilib. Ulu Öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə YAP Mingəçevir şəhər təşkilatının sədri Bəxtiyar Mustafayev, YAP Mərkəzi Aparatının Gender siyasəti və gənclərlə iş şöbəsi müdirinin müavini Zəkiyyə Musayeva, Mingəçevir şəhər İcra Hakimiyyətinin başçısı İlham İsmayılov, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupunun Milli İnformasiya sektorunun müdiri Raqif Allahverdiyev, "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin əməkdaşı Xaliq Qurbanov, Səhiyyə Nazirliyi Sumqayıt şəhər Narkoloji Dispanserinin şöbə müdiri, həkim-narkoloq Vüsal Cabbarov və Mingəçevir şəhər Polis Şöbəsinin rəisi, polis polkovniki Ədalət Əliyev çıxış ediblər.

Qeyd olunub ki, sağlam cəmiyyətin formalaşması üçün narkomaniya ilə mübarizə mühüm əhəmiyyətə malikdir. Bu istiqamətdə əsas məqsəd yeniyetmə və gənclərin belə zərərli vərdişlərdən uzaq durmalarına nail olmaq və maarifləndirmə işini lazımi səviyyədə aparmaqdır. Diqqətə çatdırılıb ki, narkomanlığa və narkotiklərə qarşı effektiv mübarizə aparan ölkələrdən biri də Azərbaycandır. Ölkəmizdə bu istiqamətdə atılan addımlar, həyata keçirilən mübarizə tədbirləri nəticəsində mühüm uğurlar əldə olunub. "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı"nda məhz maarifləndirmə məsələlərinə xüsusi yer verildiyi qeyd edilib.

Eyni zamanda vurğulanıb ki, narkotiklərin qanunsuz dövriyyəsi və narkomanlıq müasir dünyanı ciddi narahat edən qlobal problemlərdən biri olmaqla bərabər, insanların sağlamlığına təhlükə yaradan, cəmiyyətin mənəvi və əxlaqi dəyərlərinə zərbə vuran, sosial-iqtisadi inkişafa mənfi təsir göstərən amildir. Narkomaniya ilə mübarizə vəzifəsindən, sosial mənşəyindən, cəmiyyətdə tutduğu mövqedən asılı olmayaraq hər kəsin vətəndaşlıq və mənəvi borcuna çevrilməlidir. Sonra tədbir iştirakçılarının sualları cavablandırılıb və mövzu ətrafında fikir mübadiləsi aparılıb. Tədbir iştirakçılarına narkomaniya ilə mübarizənin təbliği məqsədilə Dövlət Komissiyasının İşçi qrupu tərəfindən hazırlanmış əyani vəsaitlər paylanıb.

PROBLEM

# Kişidən nə qoxusu gəlməlidir?..





***Çox müzakirə olunan bu məsələyə yenidən qayıdaq. Çünki bu mövzu qəti şəkildə "dəbdən" düşmür. Ona görə düşmür ki, kişilər özlərinə onlardan gələn bütün qoxular üçün haqq qazandırır. Beləliklə də mövzu köhnəlmək bilmir.***



### Kişiləri danlayanda...

Məsələn, kişiləri onlardan gələn tütün iyinə görə danlayanda, deyirlər ki, kişidən tütün iyi gələr də, bəs nə iyi gəlməlidir? Tər qoxusu üçün danlayanda, deyirlər ki, kişisən tər qoxusu gələr də. Özlərinə haqq qazandıra-qazandıra tütünün xoşagəlməz iyini evlərimizə, iş otaqlarımıza daşıyırlar. İşdə, evdə birgə paylaşdığımız dolablara paltar asmağa peşman oluruq. Çünki onlar ya tütün, ya da tər iyi verir. Lakin nədənsə bəzi kişilər özlərindən gələn qoxunu duya bilmirlər. Bəlkə də bu geniş bir araşdırma mövzusudur ki, nə üçün onlar öz qoxularını hiss etmirlər. Lakin onlardan fərqli olaraq qadınlar özlərində olan hər hansı bir qoxuya qarşı həssasdır və dərhal onun qarşısını almağa cəhd göstərirlər.

Kişilər isə buna əsla məhəl qoymur, tütün və tər qoxusu verməkdə davam edirlər. Sözsüz ki, bunu bütün kişilərə şamil etmək olmaz. Lakin əksəriyyət belədir, desək, yanılmarıq. Tütün çəkənlər isə xüsusilə xoşagəlməz qoxu verir. Hələ üstəlik çayxanalarda özləri kimi tütün çəkənlərlə birlikdə saatlarla çay içib, dama oynayandan sonra evə gələndə içəriyə elə qəribə bir qoxu çökür ki, gəl, görəsən. Qadınlar onlara "səndən gələn iydən xəbərin var?",- deyəndə isə açıqca görürlər ki, kişilərin özlərindən gələn qoxudan əsla xəbəri yoxdur. Ya bu qoxu onların burunlarına dolub adiləşir, ya da hissetmə qabiliyyətlərində problemlər var.

Eləcə də tər qoxusu olan kişilər. Onlar da sözsüz ki, qoxu verdiklərindən xəbərsizdir, yoxsa bunun qarşısını almaq barədə fikirləşərlər. Tez-tez ictimai nəqliyyatda bu kimi hallarla qarşılaşmaq olur. Və Allaha yalvarırsan ki, qarşıdakı dayanacaqda bu kişi enə. Bəzən istədiyin kimi olur, bəzənsə düz mənzilbaşına qədər bu iyi qoxulamalı olursan.

### Boğucu tünd kişi ətirləri

Bəzi kişilər isə həddindən artıq ətirdən istifadə edirlər ki, adamın yanından ötəndə boğulduğunu hiss edirsən. Həm də əksəriyyət kişinin seçimi tünd ətirlərdir. O qədər tünd ki, yoldan ötəndə dəqiqələrlə bu qoxu çəkilmir. Və yaxud da evdə bu ətirdən vurub çıxandan sonra saatlarla qoxu evdən çəkilmir. Hətta dolablarına da bu ətir çökür və hər dəfə açanda yenidən otağa dolur. Yuyulub ütülənən paltar da bu qoxunu verir.

Ən pis hal isə, bilirsiniz, nə vaxt yaranır? Həmin o tünd ətirlərdən istifadə edən kişilər üstəlik tütün çəkəndə. Deməli, siqaret çəkirlər, bunun qoxusunu guya öz aləmlərində dəf etmək üçün üstbaşlarına da ətir, odekolon vururlar, həm də necə deyərlər, ətirlə çimirlərmiş kimi. Bundan sonra hünər o kəsə ki, bu qoxunun əhatəsində nəfəs ala bilsin. Həmin qoxu nə evdən, nə iş otağından saatlarla çəkilmək bilmir.

Bu qədər tünd ətirləri necə bəyənirlər, demək istərdik, lakin bu onların seçimi olduğu üçün saygı ilə yanaşırıq. Çünki biz qadınlar arasında da tünd ətirləri sevənlər çoxdur. Bizim isə kişiliqadınlı insanların seçiminə hörmətlə yanaşmaqdan başqa çarəmiz yoxdur.

### Kişilər nə vaxtsa qoxularının fərqinə varacaqlar?

Lakin bir məsələ hələ də qaranlıq olaraq qalir ki, kişilər görəsən nə vaxtsa özlərindən gələn qoxuların fərqində olacaqlarmı? Yoxsa tütün çəkmələrinə haqq qazandırdıqları kimi, tütün iyinə də haqq qazandırmağa davam edəcəklər. Bu iy guya gəlməsin deyə ətirlənib daha da xoşagəlməz qoxuya sahib olacaqlar.

Bir sözlə, kişilərdən nə qoxusu gəlməlidir, sualı məncə çox yanlış və yersiz bir sualdır. Kişilərdən də, qadınlardan da normal olaraq nə qəbul olunursa, o qoxu gəlməlidir: xoşagəlim, heç kimi narahat etməyən qoxu. Bunu isə necə etmək lazımdır, hamı əməl etməsə də, yaxşı bilir.

### Qoxu səbəbindən dağılan ailələr

Ailələr tanıyıram ki, qoxu səbəbindən boşanmaya qərar veriblər. İstər qadın, istər kişidən gələn qoxu ilə bağlı olaraq. Düzdür, bəzi qoxular var ki, onlar insanın özündən asılı olmayaraq gəlir. Yəni, hansısa bir xəstəliklə, orqanizmdə çatışmazlıqla bağlıdır. Lakin əksər qoxular isə baxımsızlıqdan gəlir. Hər iki halda isə bunun qarşısını almaq mümkündür. Tibbin bu qədər inkişaf etdiyi bir dövrdə kimdənsə xoşagəlməz qoxunun gəlməsinin qarşısını alacaq onlarla müalicə metodu vardır. Lakin biz məsuliyyətsizlik edib, bunu boş bir məsələ sanıb həkimə müraciət etmiriksə, bu səbəbdən ailəmiz dağılırsa, deməli, heç bizim düşüncə səviyyəmiz də yerində deyil. Və yaxud da yuxarıda dediyim kimi, tütündən tüstülədib, saatlarla çayxanalarda əyləşib üzərimizə bu qoxuları hopdurub evlərimizə yollanırıqsa, danlanmamaq üçün üstümüzə ətir vurub daha kəskin qoxu veririksə, yenə də günah özümüzdədir.



### Fəsad verən qoxu

Bu qoxuları hər kəs təbii ki, eyni qarşılamır. Adamlar var ki, tütün iyinə də, kəskin ətir qoxusuna qarşı da allergiyası var. Və bu qoxular onu vuranda, necə deyərlər, anadan əmdiyi süd burnundan gəlir. Mədəsi bulanır, baş gicəllənməsi baş verir, qusma halı yaşayır. Ona görə də bu cür insanları da nəzərə almaq lazımdır. Xüsusilə ailədə, iş yerlərində insanları narahat edəcək qoxulara qarşı hər kəs özlüyündə mübarizə aparmalıdır. Siqaret tüstüsündən boğulan iş yoldaşına, həyat yoldaşına saygı ilə yanaşıb, onun xətrinə tütün çəkməyi azaltmaq da olar.

Kişilərə söyləyəndə, onların əksəriyyəti bunu heç də birmənalı qarşılamır. Hələ üstəlik "tütün, ətir iyindən də allergiya olmaq olar" kimi kobud cavab da verirlər. Bu isə işdə, ailədə narazılığa səbəb olur. Tər qoxusu isə dözülməz olduğu, bunun üçün kişi müalicəyə getmədiyi üçün ailənin dağılması səbəbi də ortaya çıxa bilir.

### İnsanlara saygı duyun, kişilər!

Kişilərin insanlara saygı duymasını istərdik. Onların öz xoşagəlməz qoxuları ilə insanları pərişan etməsini istəməzdik. Özləri barədə düşünmələri, təmizliyə riayət etmələri, tütündən bir qədər qaçmağa çalışmaları çox yaxşı olardı: görürsünüzmü, tütün sizin sağlamlığınızı əlinizdən aldığı kimi, həm də sizə verdiyi "ətirlə" danlanmağınıza səbəb olur. Hamı sizdən uzaq durmaq istəyir ki, üstbaşınıza hopmuş bu qoxulardan kənar qalsın. Görün bu tütünün qoxusu ətrafı belə bürüyürsə, sizin iç orqanlarınıza hansı ziyanı vurur.



Nəticə isə onu tələb edir ki, tütün çəkən və tərlə bağlı problemləri olan kişilər özləri barədə düşünsünlər. Və "kişidən kişi iyi, tütün iyi, tər iyi gələr" iddiasından bir qədər kənarlaşsınlar. Belə olarsa, anlayacaqlar ki, kişidən də, qadından da bir-birini narahat etməyən qoxu gəlməlidir, vəssalam.



***Mətanət Məmmədova***

# Azərbaycanın gizli sərvəti: buradan böyük gəlirlər əldə etmək olar

***Azərbaycan iqtisadiyyatının aqrar sektorunda ən unikal və perspektivli sahələrdən biri də zeytunçuluqdur. Çox qədimlərdən Azərbaycanda yetişdirilən zeytun təkcə qida vasitəsi deyil, həm də dərman vasitəsidir. Ən çətin şəraitdə belə yetişən, dözümlü, uzunömürlü olan bu bitki bol məhsul verməsi ilə seçilir. Azərbaycanda zeytunçuluğun böyük potensialı var, lakin təəssüf ki, hələlik bu potensialdan tam istifadə edilmir. Bəs zeytunçuluq iqtisadi baxımdan nə vəd edir, bu sahədə hansı problemlər, hansı perspektivlər var? Bu yazımızda həmin suallara cavab axtarmışıq.***

*Bu sahəyə dövlət dəstəyi gücləndirilməli, böyük sahələrdə bağlar salınmalı, məhsulların yerli və xarici bazara çıxışı artırılmalıdır*



### Azərbaycanda zeytunçuluğun iqtisadi əhəmiyyəti

Zeytun sənaye əhəmiyyətli spesifik bir sahə olaraq dünyanın bəzi ölkələrində mühüm gəlir mənbəyidir. Zeytun bağları sahəsinə və istehsal həcminə görə ən böyük 5 ölkə İspaniya, İtaliya, Yunanıstan, Tunis və Suriyadır. Bu ölkələr zeytun meyvəsindən və onun emalından yüz milyonlarla gəlir əldə edirlər.

Respublikamızda zeytunçuluq üzrə ilk təsərrüfat 1949-cu ildə Zığda təşkil edilib. Abşeron Zeytun Sovxozuna məxsus bu bağdan 1955-ci ildə 7 tona qədər meyvə yığılmışdı. 80-ci illərdə zeytun bağlarından ildə təxminən 2000 tona yaxın məhsul yığılırdı. Həmin dövrdə Azərbaycanda zeytun bağlarının ümumi sahəsi 3 min hektar təşkil edib.

Lakin, Sovet İttiqafının süqutundan sonra- 90-cı illərində digər istehsal sahələri kimi, zeytunçuluq da tənəzzülə uğradı. Belə ki, torpaqlar özəlləşdirildikdən sonra zeytun ağaclarının xeyli hissəsi sıradan çıxarıldı və yerdə qalan bağların məhsuldarlığı da qayğısızlıq ucbatından aşağı düşdü. Zeytun bağlarının tutduğu ərazi yarıbayarı azaldı. Nəticədə Abşeronda 1500 hektar zeytun bağı qalmışdı.

Dünya bazarında zeytun yağının tonu 5 min dollardan bahadır. Azərbaycan da bu bazara daxil ola, həm yerli tələbatı ödəyə, həm də ixrac edə bilər. Zeytun yağından illik olaraq 1 milyard ABŞ dolları gəlir əldə etmək üçün Azərbaycanda təxminən 150 min hektar ərazidə zeytun bağları salmaq lazımdır.

Qeyd edək ki, ölkədə pambıq əkinləri 140 min hektara yaxındır və bunu zeytunla əvəzləmək həm iqtisadi, həm ekoloji cəhətdən faydalı olar. Əlavə olaraq, subtropik və aran zonalarındakı boş ərazilərdə belə bağları salmaq mümkündür. Xüsusən də qeyd etmək lazımdır ki, zeytun ağacları 2000 il yaşayır.

Hazırda Azərbaycanda 7000 hektara yaxın zeytun sahəsi var. İldə 1000 tondan artıq ton zeytun yağı istehsal olunur. Lakin potensial bundan dəfələrlə çoxdur.

### Zeytunçuluğun inkişafını sürətləndirmək üçün nə etməli?

Fikrimizcə, emalın genişləndirilməsi, istehsalın artması üçün köhnə bağların bərpası da efektiv ola bilər. Təəsüflər olsun ki, bir çox sahələrdə məhsuldar ağaclar qırılaraq yaşayış yeri inşa edilib, kafe və ya restoran tikilib. Bu sahə gəlir səviyyəsinə görə yüksəkdir, ona görə də bu sahəyə daha çox qayğı göstərmək lazımdır, nəinki ağacları məhv edib yerində tikililər inşa etmək.



Zeytunçuluğun inkişafı üçün böyük sahələr lazımdır. Kiçik torpaq sahələrində zeytunçuluğu inkişaf etdirmək səmərə verməz, ona görə ki, yağ əldə etmək üçün gərək onu yığdırıb emal etdirəsən. Bizim bir çox fermerin emal etmək üçün imkanı və şəraiti yoxdur. Belə olanda pay torpağında istehsal az olur və burda qazancı daha çox emalla məşğul alan sahibkar qazanacaq.

Kiçik sahələrdə zeytun əkənlər onu turşu kimi qoyub satırlar. Özü də elə də ucuz deyil- mağazalarda kq-i 10-15 manat arasında satılır. Demək bu meyvəçilikdə ən gəlirli sahələrdən biridir.

Ona görə də, bu sahədə dövlət dəstəyi gücləndirilməlidir. Bu sahəyə subsidiya verilməli, öznüməşğulluq proqramı çərçivəsində müəyyən qədər torpaq sahəsi olanlara pulsuz tinglər verilməlidir. Çünki bu sahə əhalinin məşğulluğunu təmin edəcək. Burda həm bağbanlar özünə iş tapa bilər, həm emal sahəsində işlər yaranar, məhsulun satışını həyata keçirə biləcək insanlar bu işə cəlb oluna bilər. Hökumət zeytunçuluğun inkişafı üçün xüsusi proqram qəbul etməlidir.

### Bizim üçün böyük bazar var, o bazarda möhkəmlənməliyik

Rusiya bazarında zeytun məhsulları ixracı üzrə SSRİ respublikaları arasında Azərbaycanın payı 80 faizdir. Digər ölkələrin ümumilikdə payına isə 20 faiz düşür. Bu da onu göstərir ki, digər ölkələrdə zeytunçuluq elə də inkişaf etməyib. Bizim artıq bazarımız var, qalır bu bazarda daha böyük nailliyyət əldə etmək. Bunun üçün bizə bu sahəni genişləndirmək, məhsuldarlığı artırmaq lazımdır.

Böyük miqyasda zeytun bağları salınsa bunun ekologiyamıza da müsbət təsirləri olar. Çünki bu, sadəcə bir gəlirli təsərrüfat sahəsi deyil, həm də böyük bir meşədir. Zeytun Azərbaycanın iqlim şəraitinə yaxşı uyğunlaşır və dözümlüdür. Küləyə və istiyə dözür. Emal olunan məhsullardan həm qidalanmada, həm də əczaçılıqda istifadə edilir.

Mağazalarda apardığımız müşahidələr, satıcılarla söhbətimiz göstərdi ki, son vaxtlar yerli zeytun məhsullarına maraq artıb. Buna bir sıra mühüm faktorlar təsir göstərir. Əvvəla, yerli zeytun yağı və konservləşdirilmiş meyvəsi xarici analoqlarından 50 faiz ucuzdur. Məsələn, 1 litrlik yerli yağlar 10-13 manat aralığında satılır, xarici yağların qiyməti isə 15-25 manat aralığında olur. Eləcə də, turşuya qoyulmuş xarici zeytun meyvəsinin kq-ı 10-15 manat arasındadır, yerli zeytunda isə qiymət 5-10 manat arasındadır.

Yeri gəlmişkən, təəccüblü məqam odur ki, təzə zeytun meyvəsi satışdan tapılması mümkün olmayan yeganə meyvədir. Yalnız hazır turşu halında satılır, halbuki, bir çox vətəndaşlar meyvəsini alaraq evdə dərmansız (duzla) turşusunu hazırlamaq istəyirlər. Lakin heç yerdə təzə meyvəsi satılmır. Bu çox təəccüblü haldır...

### Zeytunçuluğu gəlirli sahəyə çevirmək mümkündür

Azərbaycanın dünya bazarına ekoloji cəhətdən təmiz zeytun məhsulları ilə daha böyük miqyasda çıxması üçün çox gözəl perspektivi var. Müqayisə üçün deyək ki, İspaniya zeytun ixracından ildə 5 milyard, İtaliya 2,5 milyard, Yunanıstan 1,5 milyard, Tunis və Suriya isə 700 milyon dollar civarında gəlir götürürlər. Azərbaycanın isə bu sahədən ən azı 1 milyard gəlir əldə etmək potensialı var. Bunun üçün fermerlərə istiqamət verməli, yönləndirməliyik. Onlara dövlət dəstəyi göstərilməlidir. Post-neft sövrü üçün ən gəlirli sahələrdən olacaq zeytunçuluğun inkişafı ilə bağlı xususi Dövlət Proqramı hazırlanmalı və həyata keçirilməlidir.

Düzdür, Abşeron torpağı zəif torpaq hesab olunur, ona görə də biz çalışmalıyıq ki, bu torpaqda qida elementlərini artıraq. Buna da üzvü gübrələrin verilməsi hesabına nail olmaq olar. Bitki qalıqlarını yığıb onların çürüdülməsini həyata keçirmək və onu zeytun bağlarına vermək lazımdır ki, torpaqda olan mikroorqanizmlər həmin üzvü maddələri qeyri-üzvü minerallara çevirib bitkiyə ötürə bilsin.





Ümumi müşahidələrə görə də, yerli bazarda zeytun məhsullarına tələbat getdikcə artır. Lakin bazarda idxal məhsulları üstünlük təşkil edir. Deməli, zeytunçuluğu daha da inkişaf etdirməklə bu sahədə idxala son qoymaq, əhalini daha keyfiyyətli, daha ucuz zeytun yağı və konservləri ilə təmin etmək olar ki, bu da öz növbəsində həm bu sektordan gələn gəlirlərin artmasına, həm də bazarda ucuzluğun yaranmasına səbəb olacaq.

Keyfiyyətli, zəngin tərkibli, müalicəvi zeytun meyvəsi və yağı ilə qidalanmaq insanlarımızın sağlamlığına öz müsbət təsirini göstərəcək. Son nəticədə isə bu ölkə iqtisadiyyatının qeyri-neft sektorunda əhəmiyyətli və perspektivli bir sahənin inkişafına öz töhfəsini verəcək.

**Elçin Bayramlı**

ARAŞDIRMA

# Əli Kərimliyə dəyən ictimai zərbə Gültəkin Hacıbəylidən yan keçməyəcək

## Görən Nemtsovun güllələnməsinə görə göz yaşı tökən G.Hacıbəyli bir qazinin çəkdiyi iztirablardan xəbərdardırmı?



***Dağıdıcı müxaliflər getdikcə daha çox qərəzli və böhtan xarakterli vasitələrdən istifadə edirlər. Hər şeyə qara deyir, hər bir uğuru, qələbəni gözdən salmağa çalışırlar.***

Xüsusilə də bir neçə gəncin anlaqsız vəziyyətdə olmağından istifadə edən Əli Kərimli, Gültəkin Hacıbəyli, Cəmil Həsənli, Tofiq Yaqublu onları sosial şəbəkələr vasitəsi ilə təxribat və pozucu məqsədlərə xidmət edən məlumatlar paylaşmağa, statuslar yazmağa məcbur edirlər. Ə.Kərimli və ətrafında olan trol dəstəsi ”Soros”un və ”Freedum Hous”un sifarişi əsasında konkret dövləti hədəfə alır, ənənəvi qərəzli tezislərdən istifadə etməklə, Azərbaycanda insan hüquqları sahəsində və demokratik proseslərdə problemlərin olduğunu iddia edirlər. Lakin unudurlar ki, əgər doğrudan da dedikləri kimi Azərbaycanda insan hüquqları sahəsində problemlər olsa idi, onlar həftədə bir dəfə piketlər keçirməyə cəhdlər göstərməzdilər. Sosial şəbəkələrdə ağıllarına deyil, ağızlarına gələnləri yaza bilməzdirlər. Və yaxud xalqını sevən, dövlətinə bağlı olan şəxslərə böhtan atmağa cəsarət etməzdilər. Həm də yaddan çıxarmasınlar ki, Avropada, ABŞ-da mitinqlər, piketlər keçirməyə çalışanlar su şırnaqları ilə, zəhərli tüstülərlə, rezin güllələrlə zərərsizləşdirilirlər. Təkcə bir faktı qeyd etmək lazımdır ki, Fransada “Sarı jiletlilər”in aksiyaları zamanı 43 min 325 nəfər həbs olundu ki, onlardan da 21 min nəfəri bu və digər formada hüquqi məsuliyyətə cəlb olundular. Belə zorakı hallar ABŞ-da, Böyük Britaniyada, Almaniyada və digər ölkələrdə adi hala çevrilib. Hər il ABŞ-da onlarla insan polis zorakılığının qurbanı olur, öldürülür, şikəst edilir. Görünür, bu kimi real faktlardan Azərbaycanın dağıdıcı müxalifəti xəbərsizdir. Ya da kar və kordurlar.

### Dağıdıcı müxalifətin düşüncəsi erməni revanşistlərinin düşüncəsindən fərqlənmir

Müasir dünya tarixində Azərbaycan hər hansı bir dövlətin qazana bilmədiyi qələbəni- Qarabağı işğaldan azad etməklə, ərazi bütövlüyünü təmin etdi. Dağıdıcı müxaliflər bu zəfərlə bağlı bir kəlmədə olsun müsbət məqamları əhatə edə biləcək fikirlər söyləmədilər. Xalqın sevincinə şərik olub, müsbət ifadələrlə çıxış etmədilər. Əksinə, Ə.Kərimli “Rus sülhməramlıları Qarabağda qaldığı üçün qələbəmiz yarımçıqdır”, - deyə bildirdi. Bu azmış kimi təxribat xarakterli statuslar paylaşmaqdan, özünə yaxın internet TV-lərdə müsahibələr verməkdən çəkinməyir. Noyabrın 8-də Xankəndi şəhərində keçirilən hərbi paradın möhtəşəmliyindən dünyanın əksər KİV-ləri videolar paylaşdılar, məqalələr yazdılar, dost xalqlar millətimizi təbrik etdilər, Azərbaycanın dağıdıcı müxalifəti isə susdu, danışmadı. Bir növ erməni lobbisi ilə həmrəylik nümayiş etdirdilər. Bu isə onu deməyə əsas verir ki, dağıdıcı müxalifətin düşüncəsi Ermənistanın bədbəxt gündə olan revanşistlərindən fərqlənmir. Hətta demək olar ki, maraqları tam şəkildə üst-üstə düşür.

### Gültəkin Hacıbəyli Boris Nemtsovun güllələnməsindən narahat olub, lakin....

Fakt ondan ibrətdir ki, dağıdıcı müxalif fəaliyyət yolu seçən şəxslər Azərbaycanın uğurlarından, qələbələrindən pərişan olur, qəm-qüssəyə dalır. Çünki bir dəfə də olsun dövlətimizin qələbələrindən, uğurlarından danışmayıblar. Hər zaman xırda məsələləri qlobal problem kimi qabardıb, onun ətrafında hay-küy qaldırıblar. Sanki erməni revanşistləridir oturublar Ermənistanda başlarına dəyən dəmir yumruğun təsiri altında gic-gic Azərbaycan əleyhinə böhtanlar səsləndirirlər. İqtisadi, siyasi, mədəni, elmi məsələlərdən danışanda yalnız hansısa xarici dövlətlərdən misal göstərirlər. Milli Şuranın üzvü Gültəkin Hacıbəylinin Rusiyanın müxalif simalarından olmuş Boris Nemtsovdan və Zuqanovdan yana-yana xoş fikirlər söyləməsi ümumilikdə dağıdıcı müxalifətin hansı xislətdə və əxlaqda olduğunu təsdiqləyir. Özünü dağıdıcı müxalifətin primadonnası kimi təqdim edən G.Hacıbəyli paylaşdığı statusunda yazır: “Boris Nemtsov güllələnəndə həyatımda bir dəfə üz-üzə gəlmədiyim bu insan üçün hönkür-hönkür ağlamışdım”.

G.Hacıbəyli ağlaya bilər, inandırıcıdır. Hətta insani n ö q t e y i - n ə z ə r d ə n Nemtsovun ailəsinə başsağlığı da verə bilər. Burada qınalılası nəsə axtarmaq, nəyisə araşdırıb dərinliyə getməyə də ehtiyac yoxdur. Sadəcə, görən, G.Hacıbəyli 44 günlük Vətən Müharibəsində və ya bir günlük antiterror tədbirləri zamanı yaralanan qazi ailəsinə baş çəkibmi, onların vəziyyəti, yaşayışları ilə maraqlanıbmı? Deputat olduğu zaman onu-bunu şantaj etməklə taladığı sərvətlərdən bir balaca bağlama düzəldib aztəminatlı ailəyə göndəribmi? Təbii ki, əgər bu suallar G.Hacıbəylinin üzünə deyilsə idi, o susar və başını aşağı salardı. Çünki ortada boşboğazlığından başqa real əməli yoxdur. Məsəl var deyərlər, “özgənin ümidinə bel bağlayanlar, sonda fəlakətə düçar olar”.

***İ.ƏLİYEV***

# Bu vəzifə nə imiş...

**FELYETON**

***Bir adamın neçə evi olmalıdır? Deyəcəksiniz ki, bir evi olsa, bəsdir də. Nə edəcək, adam bir evdə yaşayır da. Desək ki, iki evi olsun, onda da qayıdıb deyəcəksiniz ki, iki evi bir adam nə edir? Yaxşı, bir adamın neçə maşını olmalıdır? Hamı bir ağızdan deyəcək ki, biri bəsdir də. İkincini kim sürəcək? Yaxşı, bununla da razıyıq. Amma gəlin bir görək, bunu deyən adam bir vəzifəyə gedəndən sonra da belə düşünəcəkmi?***



***

Həsənqulu dünənədək sadə bir oğlan idı. Bir evi, bir maşını vardı. Başını salıb aşağı dolanırdı bir təhər. Bir gün Allahı gətirdi, getdi vəzifəyə. Vallah, özləri gizlədir. Amma yerin də qulağı var, yerdən səs gəldi ki, bu adam durub-dayanmaq bilmir. Evdir ki, alır, maşındır ki, alır, puldur ki, yığır.

Məmmədqulu da dünənədək bir evli, bir maşınlı oğlanlardan idi. Günlərin bir günü getdi vəzifəyə. Aradan bir il keçmədi, Məmmədqulunun yerişi də dəyişdi, əynibaşı da, maşını da. Evinin ətrafına bir hasar çəkdi ki, oradan ha boylan ki, görə biləsən ki, içəridə nə var. Ay gördün, ay.

Hüseynqulu lap dəyişdi ey. Vəzifə bu adamı elə elədi ki, ta qonşularla salamını da kəsdi. Vallah, yalan-doğru deyirlər, pulpənəsini buralara etibar etmir, xarici banklarda saxlayır. Deyirlər, 10-dan çox evi var.

Nəcəfqulu arıq bir oğlan idi. Elə ki, vəzifəyə keçdi, vəzifə buna düşdü, həm də necə düşdü. Nəcəfqulu oldu 100-150 kiloqram, bəlkə də yanılıram, bundan da çox. Həm də deyirlər, adam yaman pul yığıb.

Hələ Rzaqulunu demirəm, bizim kimi sadə bir adamıydı da. İndi gəlin, baxın. Vəzifəyə getdi, həyatı dəyişdi. Evini deyək, maşınını deyək, dolanışığını deyək, hansını deyək? Pula da pul demir. Dünənədək arvad-uşağı Sədərək bazarından yığılmırdı, indi “Mall”ardan çıxmırlar.

Əşi, özləri bilər ey, yığsınlar, xərcləsinlər. Bal tutan barmaq yalayacaq da. Bunu atalar deyib, biz uşaq-muşaq deməmişik ki. Amma başqa məsələ maraqlıdır ey. Səhərdən bəri mətləbə gəlmək üçün yola çıxmışam. Şükür, deyəsən gələ bildim.

Mətləb budur ki, ay qardaş, sənə bu vəzifəni verməyiblər ey, talançılıqla məşğul olasan. Birinci ona görə veriblər ki, iş görəsən, bir işə, əmələ yarıyasan. İkinci, başqalarından fərqləndirildiyin üçün qanadların yanında dura, göylərə avaz eyləməyə.

Amma çox halda belə deyil axı. Elə ki, vəzifə başına keçildi, məqsəd dəyişir. Adam başlayır pul yığmağa. Yığır, yığır, yığır, deməli, bu pul ailəni aşır, övladı aşır, nəvələri aşır, nəticələri aşır, kötücələri aşır, yadıcaları ( yadlaşmaqda olan nəsil) da aşır, lakin adam durmur. Eşidirsən ki, milyonları mənimsəyib, lakin gözü hələ də doymayıb.

Deyirəm, haradan alım Molla Nəsrəddini, gələ bunlara bir az ağıl-huş verə. Deyə ki, ay yazıqlar, dayanın, özünüzü biabır etməyin. Gözünüz doysun, nə edirsiniz? Bu qədər yetər. Vallah, heç qədrinizi övladınız bilməyəcək. Pulunuzu elə sovuracaq göylərə ki, baxıb görəcəksiniz ki, oba köçüb, yurdu qalıb. Nəvələriniz xərcləyəcək, amma inanın, bicə dəfə sizə rəhmət oxumayacaqlar. Nəticələriniz üzünüzü görə, ya görməyə. Xərcləyib, heç sizi əsla anmayacaqlar. Qaldı kötücəyə, yadıcalara, vallah, onlardan yana bu qədər həyəcana, qorxuya dəyməz. Çünki bu pulun axır-uxuru onlara çatacaq, az olduğu üçün hələ bir kəllənizi də söyəcəklər.

***Mətanət Məmmədova***

# USAİD-in korrupsiya faktı

## Və ya Vardanyanın 1 milyonunu kim yeyib?




Məlum olduğu kimi, USAİD rəhbəri, daim Azərbaycan və Türkiyə əleyhinə irqçi və aqressiv çıxışları ilə yaddaqalan ermənipərəst Samanta Pauer özünün X səhifəsində (əvvəlki Tvitter) Azərbaycanın Qarabağ regionunun erməni sakinlərinin Ermənistana miqrasiyasını “məcburi köç” adlandırıb. O, bununla bir daha sübut edib ki, təşkilatının əsas məqsədi heç də humanitar fəaliyyət deyil, reallıqda kirli məqsədlərdir və həmin məqsədlər bilavasitə ABŞ-ın siyasi dairələri tərəfindən planlı şəkildə icra olunur.

### Hikmət Hacıyev USAİD rəhbərinin sözügedən açıqlamasına cavabında qeyd edib ki...

Onu da xatırladaq ki, Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev USAİD rəhbərinin sözügedən açıqlamasına cavabında isə qeyd edib ki, Azərbaycanın 30 il davam etmiş işğala məruz qaldığı dönəmdə ABŞ Ermənistanın yanında dayanıb. Hikmət Hacıyev Samanta Pauerin hazırda Azərbaycanda həbsdə olan Qarabağ separatçılarının nümayəndəsi, milyarder Ruben Vardanyanla olan əlaqələrini də xatırladıb.

### Qarabağ və Donetsk separatçılarının əlaqələri nədən ibarət olub?

Bu arada onu da qeyd edək ki, Samanta Pauerlə əlaqəsini Ruben Vardanyan ilk dəfə Azərbaycan istintaq orqanlarına verdiyi ifadəsində etiraf etmişdi.

Vardanyan etirafında Donetsk separatçısı, hazırda Rusiya Dövlət Dumasının deputatı olan Aleksandr Borodayın bilavasitə onun tərəfindən maliyyələşdirildiyini demişdi. USAİD-in rəhbəri Samanta Pauerin Vardanyanla yaxın təmaslarının təfərrüatı da Azərbaycan tərəfinə məlum olmuşdu.

### Bundan sonra USAİD adlı təşkilatın Azərbaycanda yeri, ümumiyyətlə, olmayacaq

Belə ki, ABŞ administrasiyasının əsas fiqurlarından sayılan Samanta Pauer Ukraynada separatçıları maliyyəşdirən Ruben Vardanyanla nəinki əməkdaşlıq edir, hətta erməni milyarderin “soyqırıma məruz qalmış ermənilər”ə yardım etmək məqsədilə yaratdığı “Avrora” təşkilatının 1 milyon dollar dəyərində mükafatını da alıb. Beləliklə, faktlar ortadadır və bundan sonra USAİD adlı təşkilatın Azərbaycanda yeri, ümumiyyətlə, olmayacaq.

***Afət Tahirqızı***

# İnformasiya aclığı: necə doymalı?

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İnformasiya və kommunikasiya texnologiyalarının inkişaf etdirilməsi" istiqaməti çərçivəsində hazırlanıb.*

***BMT-nin İqtisadi və Sosial Şurasında məşvərətçi statusa malik olan Beynəlxalq İnformasiyalaşdırma Akademiyası və Ümumdünya İnformasioloji Parlamentin təşəbbüsü ilə qeyd olunan bu gün informasiya-kommunikasiya texnologiyaları sahəsində çalışanların peşə bayramıdır. Qeyd edək ki, 1992-ci il noyabrın 26-da Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının təşəbbüsü ilə I Beynəlxalq İnformasiyalaşdırma Forumu keçirilib.***







Forumun işində dünyanın 29 ölkəsindən 10 mindən artıq alim və mütəxəssis iştirak edib. Tədbirdə ənənəvi olaraq hər il 26 noyabr tarixində Ümumdünya İnformasiya Gününün qeyd olunmasına dair qərar qəbul olunub. Bu əlamətdar gün rəsmi olaraq 1994-cü ildə UNESCO tərəfindən qeydiyyata alınıb.

Texnologiyanın 21-ci əsrə doğru sürətli inkişafı daha çox məlumat əldə etməyə imkan verən yeni informasiya mənbələrinin yaranmasına şərait yaratdı.

İnformasiya əsri kimi xarakterizə edilən bu dövr informasiya aclığımızı ödəməyə kifayət edirdi, lakin son dövrlərdə həddindən çox informasiya yüklənməsi səbəbindən bu sahədə xaotik vəziyyət hökm sürür və yalan doğruya qarışıb. İndi əksəriyyət informasiya aclığını doyurmaq istədikdə əsli olmayan xəbərlərə tuş gəlir.

Texnologiyanın inkişafı ilə meydana çıxan, yavaş-yavaş həyatımıza girən, sonra da 24 saatımızı zəbt edən internet bu gün insanların bədən üzvünə çevrilib. İndi internet əlimiz, qolumuz, ayağımız olub. İnternetin verdiyi imkanlar bizi özündən asılı, müti vəziyyətə salıb. İnternet, rəqəmsal platformada informasiya resurslarının boy atmasına, şaxələnməsinə şərait yaradıb və zamanla informasiya çirklənməsinə səbəb olub. İndi doğru xəbərlə yalan xəbərin arasında ilişib qalan insanlar nəyə inanacağını bilmir.

İnformasiya çirklənməsinin artması, yalan və şaiyələrin xəbər kimi sırınması, insanların gündəlik həyatlarında lazım olduğundan daha çox məlumatlara məruz qalmalarına və informasiya kütləviliyində itib-batmalarına səbəb oldu. Ağıllı telefonların həyatımıza daxil olması, istənilən adamın istədiyi vaxt müxtəlif məzmunda məlumat, foto, video paylaşa bilməsi sözün əsl mənasında informasiya zəbti yaratdı.

Dünya rəqəmsallığa marağı hər gün çoxalır, 8 milyardı keçən dünya əhalisinin 57%-i internetdən aktiv istifadə edir. Deməli, dünyanın yarısından çoxunun internetə çıxışı var. Bu da o deməkdir ki, dünya əhalisinin 67%-nin mobil abunəsi var ki, bu da çox ciddi göstəricidir. Üstəlik, dünya əhalisinin 50%-i sosial şəbəkələrdən (Facebook, Instagram, Twitter, Pinterest, Youtube, Tumblr, Snapchat, Linkedin,Tik-Tok və s. kimi hesablar) aktiv istifadə edir. Bu rəqəmlərin fonunda məlumat mübadiləsinin də müvafiq olaraq artdığını söyləmək olar. Yəni, izləyən, oxuyan qədər paylaşan, xəbər istehsal edən də var. Bu vəziyyətdə informasiya çirkliliyi, yalan məlumat bolluğu qaçılmazdır.

İnternetdən istifadə hər yerdə geniş yayılıb - iş yerlərində, evlərdə, məktəblərdə, kafelərdə, parklarda – demək olar ki, hər yerdə. İnsanlar vaxtının çoxunu rəqəmsal dünyaya qoşularaq keçirir, internet olmayanda sudan çıxmış balığa dönür. Hamı ya xəbər istehsal edir, ya məlumat paylaşır, ya video yayımlayır. Oxuyan, xəbər gözləyən insanların xəbərə, məlumata olan aclığı bu bazarı daha da çiçəkləndirir. Beləcə yalan-doğru məlumatların fonunda informasiya çirkliliyi yaranır və doğru xəbərlər itib-batır.

Məlumat çoxluğuna, dolayısı ilə informasiya çirkliliyinə səbəb olan digər amil smartfonlardır. Smartfonlar texnologiyanı, interneti insanların gündəlik həyatının ayrılmaz hissəsinə çevirdi. İnsanların qarşılaşdıqları hər şeyi çəkib paylaşmaq həvəsi, yedikləri, gördükləri, getdikləri, geydikləri – ağlınıza gələcək və gəlməyəcək hər şeyi paylaşmaq sevdaları da məlumat bolluğu yaratdı.

İnsanları informasiya çirklənməsinə məruz qoyan sosial şəbəkələr ciddi xəbər platforması deyil. Xəbər aclığını informasiyanın mənbəyindən, saytlardan, portallardan kompensasiya etmək yerinə sosial şəbəkələrdə doyuran insanlar informasiya bombardmanına məruz qalır. Bu platformalarda ani məlumat axınları sürətli olur, məzmun tez-tez dəyişir, ona görə də bu məlumatların doğruluğunu anlamaq da çətinləşir.

Sürətli informasiya axınının olduğu informasiya əsrində etibarlı məlumat əldə etmək çox çətindir. Sosial şəbəkələrin insanlara təsiri kifayət qədər yüksəkdir. Sosial şəbəkələrin diqtəsi ilə yaşayan kütlə hər gün böyüyür. Rəqəmsallaşma nəticəsində insanların beyinləri anlıq görüntülər, məkan bildirişləri, fenomenlərin paylaşımları, gündəlik reels videoları və müxtəlif məlumatlarla doludur. Paylaşılan məlumatlar təhlükəsiz və ya etibarsız olmasından asılı olmayaraq, ayaq açıb yeriyir. Sosial şəbəkə istifadəçilərinin məruz qaldığı yalan məlumat bombardmanı faydalı, doğru məlumat əldə etmək şansını azaldır.

Universal kitabxana olan internet insanların limitsiz məlumatlara asanlıqla daxil olması üçün mükəmməl bir vasitədir. Bu kitabxana bizə, hər yerdə, həmişə, hər şəraitdə yanımızda olan telefonlarımıza bir barmaq işarəsi qədər yaxındır. Nəyə inanıb, nəyə inanmamaq isə öz əlimizdədir. İnformasiyanı ən doğru ünvanından əldə etməklə sosial şəbəkə yalanlarının ayaq açıb yeriməsinə imkan verməmək olar.

***Lalə Mehralı***





SORĞU

# Artan nəqliyyat hadisələrinin başlıca səbəbləri NƏLƏRDİR?

***Bu ilin 9 ayı ərzində Respublika ərazisində avtobus və mikroavtobusların iştirakı ilə 1806 yol nəqliyyat hadisəsi qeydə alınıb. Bu barədə Bakı Şəhər Baş Dövlət Yol Polisi məlumat yayıb. Qəzalar nəticəsində avtobus sürücülərinin təqsiri ucbatından 17 nəfər ölüb, 25 nəfər isə xəsarət alıb. Bu qəzaların artmasının başlıca səbəblərindən biri kimi avtobusların köhnəlmiş və yarasız olması göstərilir.***

Yol nəqliyyat hadisələrinin artmasının digər səbəbi isə sürücülərin məsuliyyətsizliyi, qeyri-peşəkar davranışı, qayda pozmağa meyilli olmalarıdır. Bakı ətrafı kənd və qəsəbələrə işləyən avtobusların yarasız olması ilə bağlı məsələ də tez-tez gündəmə gəlir. Bəs niyə hələ də paytaxt Bakının köhnə avtobus problemi öz həllini tapa bilmir?

SİA mövzularla bağlı ekspertlərin rəyini alıb.



Nəqliyyat məsələləri üzrə ekspert, hüquqşünas Ərşad Hüseynov: "Avtobus sürücülərinin peşə hazırlığında səthi yanaşmalar var. Bu yanaşmalar tətbiq olunmalıdır. Sürücülərin iş və istirahət rejiminə nəzarət edilməlidir. Nəzarət məsələsi güclü olmalıdır ki, sürücülər vaxtında istirahət etsinlər, yorğun vəziyyətdə, xəstə vəziyyətində gecə reyslərinə çıxmasınlar. Bu vəziyyətlər də çox ciddi qəza riski yaradır. Təhlükəsizliklə bağlı sürücülərin davranışı ən üst səviyyəyə qaldırılmalıdır. Digər sürücülərdən daha peşəkar və etibarlı olmalıdırlar. Texnikanın köhnəlməsi problemi nə gəldikdə isə bu iqtisadi problemdir. Köhnəliyi aradan qaldırmaq üçün ictimai nəqliyyata sərmayə qoyulmalıdır. Avtobus parkı yenilənməlidir."

AYNA-nın mətbuat katibi Tural Orucov: "Müntəzəm sərnişin daşımanı həyata keçirən avtobuslar gündəlik reys qabağı texniki baxışdan keçirilir. Sürücülər isə tibbi müayinəyə cəlb olunurlar. İctimai nəqliyyatda sərnişinlərə göstərilən xidmətlərin təhlükəsizlik və keyfiyyət baxımından yüksək standartlara çatdırılması məqsədilə avtobus parkının yenilənməsi diqqət mərkəzindədir. Sərnişindaşıma sahəsinə göstərilən xidmətin keyfiyyəti, təhlükəsizliyi və rahatlığının artırılması həmçinin marşrutların təhkim edilməsi, şəffaflığın təmin edilməsi məqsədi ilə şəhərlərarası və şəhərdaxili marşrut xətləri müvafiq qanunvericiliyin tələblərinə uyğun olaraq mərhələli qaydada müsabiqəyə təqdim edilir. Müsabiqənin şərtlərindən biri də avtobusların daha yeni olmasıdır. Müsabiqələrdə balanslarında müasir və saz vəziyyətdə avtobuslar olan daşıyıcılar iştirak edir və qalib gələrək xətlərin istismarını həyata keçirirlər".

***Özləm Quliyeva***

## "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# Evlilikdə yaş meyarı nə dərəcədə əhəmiyyət kəsb edir?



***"Dünyada ailə qurulması, rəsmi nikaha daxil olunması kimi məsələlərlə bağlı yeni trendlər yaranıb. Əvvəllər Şərq ölkələrində 14-16 yaşlı qızlar ərə verilirdisə, indi bu düşüncə tərzi dəyişilib. İqtisadi və mədəni cəhətdən inkişaf etmiş ölkələrdə 30-35 yaşlı insanlar öz iqtisadi vəziyyətlərini düzəltdikdən, tam formalaşdıqdan sonra evlənirlər". Bu sözləri SİA-ya açıqlamasında Yeni Yazarlar və Sənətçilər İctimai Birliyinin sədri, Prezident təqaüdçüsü, yazıçı-kulturoloq Aydın Xan Əbilov deyib.***

O bildirib ki, Azərbaycanda isə erkən nikahlar daha üstünlük təşkil edirdi: "Lakin qanunvericilik dəyişdirildi, ictimaiyyətin maarifləndirilməsi işləri aparıldıqdan sonra nikaha girmək artıq ictimai-sosial dəyərə çevrildi. Cütlüklər arasında yaş fərqi, hansı tərəfin yaşca böyük və ya kiçik olması hər

**KULTUROLOQDAN AÇIQLAMA**

zaman müzakirələrə səbəb olub. İstənilən halda tərəflərin eyni yaşda olması münasibəti daha möhkəm edəcək. Amma istər xanım, istər bəyin yaşının böyük olması böyük bir problem deyil. Şərq ölkələrində adətən kişilərin yaşı daha böyük olur, Avropada isə yaşıd və ya xanımların daha böyük olması müşahidə olunur.

İnkişaf edən ölkələrdəki təcrübə Azərbaycanda da tətbiq olunmalıdır. Yəni, ali məktəbi bitirməmiş, işləməyən və sosial-məişət problemlərini həll etməyən şəxsin evlənməsi normal qarşılanmamalıdır. Təəssüflər ki, bizim ölkədə valideynlər bir-iki otaqlı evlərinə oğul evləndirib, gəlin gətirirlər. Sonra isə daimi problemlər, münaqişələr yaranır. Bunun olmaması üçün mütləq şəkildə yeni evli cütlüklər ayrı yaşamalıdırlar. Bu zaman fərqliklərin bir o qədər önəmi olmayacaq".

# Aviabilet alıb-satanlar vergini necə ödəməlidir?

"Vergi Məcəlləsinin 155.1. maddəsinə əsasən sahibkarlıq fəaliyyəti göstərən və ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) vergi tutulan əməliyyatlarının həcmi 200.000 manatdan artıq olan şəxslər, o cümlədən bu Məcəllənin 218.1-ci maddəsi ilə müəyyən edilmiş hüquqdan istifadə etməyən ictimai iaşə fəaliyyəti ilə məşğul olan şəxslər (bu Məcəllənin 218.4.1-ci, 218.4.2-ci və 218.4.3-cü maddələrində göstərilənlər istisna olmaqla) bu Məcəllənin 157.3.1-ci maddəsində göstərilən tarixdən 10 gün ərzində ƏDV-nin məqsədləri üçün qeydiyyata dair ərizə verməyə borcludur". Bu sözləri SİA-ya açıqlamasında iqtisadçı ekspert Rauf Qarayev deyib. Onun sözlərinə görə, əgər vastəçilik göstərən şəxs fiziki şəxsdirsə gəlir vergisi, təşkilatdırsa mənfəət vergisi yəni gəlirindən 20 faiz tutularaq vergiyə cəlb olunmalıdır: "Məsələn, A subagenti AZAL şirkəti ilə 300 000 manatlıq müqavilə bağlayıb.

300 000 AZN : 200 AZN = 1500 bilet alıb. 1500 biletin üstünə 20 manat xidmət haqqı qoyub. 1500*20 = 30 000 AZN gəlir əldə edib. Belə olan halda 30 000 *20% = 6000 manat vergiyə cəlb olunacaq. Əgər malın dəyirinə ticarət əlavə tətbiq olunursa (Vergi Məcəlləsinin 13.2.64. maddəsinə əsasən) ticarət əlavəsi - malın ƏDV tətbiq edilmədən pərakəndə satış qiyməti (mallar əvəzsiz təqdim edildiyi və ya barter olunduğu halda bazar qiyməti) ilə mal göndərənə ödənilən alış qiyməti arasındakı fərq) 1500 bilet * 200 AZN = 300 000 bu halda 20 faizdən əlavə ƏDV (18%) məbləğ də tutulmalıdır. Əgər fiziki şəxs və ya hüquqi şəxs əhaliyə xidmət göstərirsə və onun gəliri 200000 manat həddini keçməyibsə bu halda 2 faiz gəlirindən vergi ödəyəcək. Məsələn, A subagenti AZAL şirkəti ilə 100 000 manatlıq müqavilə bağlayıb.




**İQTİSADÇI AYDINLIQ GƏTİRDİ**

100 000 AZN : 200 AZN = 500 bilet alıb. 500 biletin üstünə 20 manat xidmət haqqı qoyub. 500*20 = 10 000 AZN gəlir əldə edib. Belə olan halda 10 000 *2% = 200 manat vergiyə cəlb olunacaq".

***Ləman Sərraf***

# DİQQƏT: Limonlu çayın faydalarını eşitdikdə ŞOK OLACAQSINIZ!

***Səhərlər çay həvəskarı olanlar bu xəbərimizi eşidəndə çay seçimini dəyişdirə bilər. SİA xarici mətbuata istinadən xəbər verir ki, bu üsulla çayı limonlu içmənin faydalarını hazırladıq. Çünki çaya atacağımız bir dilim limon sadəcə aromanı deyil, bədənin mexanizmini də dəyişdirir.***

**Limonlu çayın faydaları:**

Bir çox insan səhər, günorta ya da axşam çayından limonu əksik etmir. Bəs, səhərlər limonlu çay içməyin hansı faydaları var? Səhərlər bir dilim limon qaraciyərdən həzm sisteminə qədər bir çox orqana təsir edir. Limonlu çay qaraciyəri təmizləyir. Belə ki, səhərlər ilk çayınızı limonla içmək qaraciyərdə toplanan bütün tullantı və toksinlərin atılmasına kömək edir və beləcə bədəni təmizləyir.

Dəri sağlamlığını yaxşılaşdırır, insanı sakitləşdirir və ağrıya yaxşı təsir göstərir. Həmçinin, həzm və bağırsaqlara faydalıdır. Sadəcə səhərlər deyil, ağır bir yeməkdən sonra bir stəkan limonlu çay içmək həzmi önəmli ölçüdə artırır. Limonlu çay insanın xəstəliklərlə mübarizə aparmasını asanlaşdırır. Limonun içərisindəki antioksidantlar və vitaminlər bədənə fayda verir. Bu, bədən ağrısı və bəlğəm kimi narahatlıq əlamətlərini xəfifledir, ölü hüceyrələri yeniləyir, dərini gəncləşdirir.

Üstəlik, limonlu çay sızanaq, qaşıntı və şişliklə təsirli şəkildə mübarizə edən və ümumi dəri sağlamlığını dəstəkləyən bir çox özəlliklərə də sahibdir. Həm də ürək sağlamlığını dəstəkləyir. Hər axşam bir stəkan ılıq limonlu çay içmək ürək xəstəlikləri və iflicin yaranmasının qarşısını ala və ürək sağlamlığını qoruya bilər. Son olaraq qeyd edək ki, limonlu çay diş ətləri üçün faydalıdır.

***Söylü Ağazadə***



**Baş redaktor:**
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4000**